www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 dekabr 2015-ci il Çərşənbə № 292 (6320) Qiyməti 40 qəpik

**Xəbər**

## Bütün "exhange"lər bağlanır

yazısı səh.6-da

**Gündəm**

### Milli Məclisdə sensasion çıxışlar



Deputatlar manat siyasətindən və Amerikaya qarşı sənəddən narazılıq etdilər; dövlət komitələrinin ləğvi məsələsi gündəmə gətirildi

yazısı səh.4-də

### Siyasi dustaqların azadlığa yolunu Smitmi bağladı-ekspert rəyləri

yazısı səh.3-də

### Beynəlxalq Qarabağ Koalisiyası yaradılıb

yazısı səh.9-da

*Elçin Şıxlı:*

### "Raufu tutanlar hamısı həsdədir..."

yazısı səh.5-də

### Sülhəddin Əkbərdən müxalifətlə bağlı ilginc proqnoz

yazısı səh.9-da

### 2015-də mədəniyyət aləminin itkiləri...

yazısı səh.14-də

### Azərbaycanda itən 18 milyard dollarla bağlı araşdırma başladı

yazısı səh.10-da

### Əfv sərəncamının icrası başa çatdı

yazısı səh.5-də

### Nazir oğlu Beynəlxalq Bankın Moskva filialının rəhbəri oldu

yazısı səh.10-da

### Tahir Süleyman Dəmirdaşın müdafiəsinə qalxdı

yazısı səh.12-də

### Qızılın qiyməti iki dəfə bahalaşıb

yazısı səh.10-da

### Maşın alıb-satanların nəzərinə: gömrük depoziti ləğv olunur

yazısı səh.2-də

## Amerikadan iqtidarımıza əfv etirazı

# AZƏRBAYCANA QARŞI DAHA BİR SANKSİYA LAYİHƏSİ - BANK HESABLARINA HƏBS...

Kristofer Smitin sənədindən də kəskin sənəd layihəsi ABŞ Konqresinə göndərilib; yanvarda hakimiyyəti və ölkəmizi iki sərt sınaq və hətta sürpriz gözləyir; AŞ PA-da antiermənİ qətnamələrinin qəbulu əngəllənə bilər...




yazısı səh.8-də

## İlin ən mühüm top-10 hadisəsi - nələr oldu, nələr yaşadıq...

2015 Azərbaycan üçün ziddiyyətli və faciəvi olaylarla zəngin oldu; dövlət və cəmiyyət yeni sərt sınaqlardan keçdi; "Neft cənnəti" nağılları bitdi; ölkəyə yönəlik köhnə-yeni təhdidlər 2016-ya adlayır

yazısı səh.7-də



### Həbsdəki generallar Eldar Mahmudovu ələ verir

yazısı səh.11-də



*Pənah Hüseyn:*

### "Elman Rüstəmovu tənqid edərkən AXC iqtidarını xatırlatmaq ayıbdır"

yazısı səh.11-də



### Hafiz Hacıyev baş nazirin birinci müavini olmaq istəyir

yazısı səh.13-də



# Prezident yeni yol açılışında

**Prezident İlham Əliyev dekabrın 29-da Bakının Xətai rayonundakı Ramiz Quliyev, Rahib Məmmədov, Xudu Məmmədov, Aşıq Ələsgər küçələrinin və Gəncə prospektinin yenidən qurulması və əsaslı təmir işlərindən sonrakı vəziyyəti ilə tanış olub.**

AzərTAc xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov buradakı küçələrin və Gəncə prospektinin əsaslı təmiri və yenidənqurma planı əsasında görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verib.

Qeyd edilib ki, Xətai rayonu ərazisindəki küçələrdə də abadlıq və quruculuq işləri aparılır, əhalinin rahatlığının təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Xətai rayonundakı 5,5 kilometr uzunluğu olan yolda da əsaslı təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə aparılıb, ümumilikdə 131 min kvadratmetrdən çox əraziyə asfalt örtüyü döşənib. Yolların kənarında abadlıq işləri görülüb, 18 min metrdən çox qranit səki daşları və yol boyu kommunikasiya lüklərinin qapaqları dəyişdirilib. İki min kvadratmetrə yaxın səki yenidən qurulub, yeni asfalt örtüyü salınıb. Yol zolaqlarına 2 min 743 kvadratmetr tamet tavalar döşənib. Əsaslı təmir olunmuş və yenidən qurulmuş yollar müasir standartlara uyğun işıqlandırma sistemi ilə təchiz edilib, 193 yeni işıq dirəyi quraşdırılıb. Bütün kommunikasiya xətləri yerin altı ilə çəkilib, ətraf ərazilərdə yaşıllıq zolaqları salınıb.

# İlham Əliyev Nazarbayevə zəng vurdu

**Azərbaycan və Qazaxıstan prezidentləri arasında telefon danışığı olub. Virtualaz.org saytı Qazaxıstan rəsmi KİV-lərinə istinadən xəbər verir ki, Azərbaycan prezidenti qarşıdan gələn Yeni il münasibətilə Nazarbayevi təbrik edib.**

"Telefon söhbəti zamanı prezidentlər ikitərəfli əməkdaşlığın cari məsələlərini müzakirə ediblər"-açıqlamada deyilir.

Bildirilir ki, telefon danışığı Azərbaycan tərəfinin təşəbbüsü ilə baş tutub.

# Nemtsovun qətlinin sifarişçisi müəyyənləşib?

**Rusiya İstintaq Komitəsi müxalifət lideri Boris Nemtsovun qətlinin təşkilatçısı və sifarişçisinin Ruslan Muhutdinov olduğunu açıqlayıb. O, "Şimal" batalyonunun zabiti Ruslan Geremeyevin Moskvadakı sürücüsü olub.**

APA-nın RBK-ya istinadən verdiyi xəbərə görə, Rusiya İstintaq Komitəsinin rəsmi nümayəndəsi Vladimir Markin R. Muhutdinovun cinayət işinin ayrıca icraata götürüləcəyini bildirib. Mediada "Rusik" təxəllüsü ilə tanınan Muhutdinov haqqında beynəlxalq axtarış elan olunub.

Boris Nemtsovun qızının vəkili Vadim Proxorov isə bildirib ki, R. Muhutdinovu cinayətin sifarişçisi elan etməklə əsl cinayətkarları diqqətdən kənarda saxlamaq məqsədi güdülür: "Bu açıqlama Ramzan Kadırova Yeni il hədiyyəsi olacaq. Sürücü və köməkçi vəzifələrini daşıyan bir şəxsin Nemtsovun ölümü ilə bağlı hər hansı şəxsi motivi ola bilməz".

Qeyd edək ki, Rusiya müxalifəti qətldə Çeçenistan rəhbəri Ramzan Kadırovu günahlandırır.

# Su və kanalizasiya tarifləri bahalaşmayacaq

**Su və kanalizasiya xidmətləri tariflərinə yenidən baxılması məsələsi gündəmdə deyil. APA xəbər verir ki, bu barədə "Azərsu" ASC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Anar Cəbrayıllı deyib.**

Onun sözlərinə görə, bu gün "Azərsu" ASC-nin qarşısında duran ən əsas məsələ itkilərin aşağı salınmasıdır: "Bununla, rentabelli səviyyəyə çıxa bilərik. Məqsədimiz budur ki, "Azərsu" mənfəət əldə edə bilsin».

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**

**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Cavid Hüseynovun cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb




**Cavid Hüseynovun cinayət işinin istintaqı yekunlaşıb. Bakı Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, Bakı şəhər sakini Rasim Əliyevin 8 avqust 2015-ci il tarixdə Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülərək vəfat etməsi faktına görə Cinayət Məcəlləsinin 126.3 (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 177.1-ci (oğurluq) maddələri ilə Bakı Şəhər Prokurorluğunda istintaqı aparılmış cinayət işi 22 dekabr 2015-ci il tarixdə baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

Həmin cinayət işinin materiallarından Cavid Hüseynovun Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanması və törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələri ilə təqsirləndirilməsinə dair ayrıca icraata ayrılmış cinayət işi üzrə ibtidai istintaq 29 dekabr 2015-ci il tarixdə tamamlanıb.

Cinayət prosesinin iştirakçıları cinayət işinin materialları ilə tanış olduqdan sonra iş baxılması üçün aidiyyəti məhkəməyə göndəriləcək.



# Bakıya qar yağacaq

**Bakıda və Abşeron yarımadasında buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, səhər zəif duman olacağı, axşama doğru isə yarımadanın bəzi yerlərində yağış yağacağı gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya verilən məlumata görə, mülayim şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında güclənəcək.

Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 4-6, gündüz 7-9 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 756 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman və çiskinli olacağı, lakin gündüz şimal və qərb rayonlarından başlayaraq yağış, sulu qar, qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1-6, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacaq.

Dekabrın 30-u axşamdan yanvarın 3-dək Abşeron yarımadasında atmosfer təzyiqinin xeyli tərəddüdü, güclü xəzri küləyi fonunda havanın temperaturunun 10 dərəcəyədək aşağı enəcəyi, havanın yağıntılı olacağı gözlənilir. Belə ki, ləkli, soyuq diskomfortlu və yağıntılı hava şəraiti əksər əhali üçün əlverişsiz, meteohəssas insanlar üçün isə çox əlverişsizdir.




# "BakuBus" avtobusları yeni marşrutlar üzrə hərəkət edəcək

**Gələn il "BakuBus" MMC-nin avtobusları 6 yeni marşrut üzrə hərəkət edəcək. Virtualaz.org-un məlumatına görə, bunu şirkətin mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova MMC-nin saytının təqdimatı zamanı deyib.**

Onun sözlərinə görə, şirkətin planlarına "BakuBus"un avtobus marşrutlarına bütün paytaxtı əhatə etmək daxildir: "Əvvəlcə 14 marşrutu işə salmağı planlaşdırırıq. Onlardan 8-i artıq şəhərdə işləyir və əsasən mərkəzi əhatə edir. Gələn il qalan 6 marşrutu işə salmağı planlaşdırırıq".

N.Allahyarova qeyd edib ki, "BakuBus" şirkətinin marşrutlarının birində yeni 18 metr uzunluğunda avtobus sınaq rejimində işləyir: "Çoxları deyir ki, avtobuslar sınaq rejimində maksimum bir həftə işləməlidir, lakin biz belə hesab etmirik. Avtobus hazırda sınaq rejimində müxtəlif marşrutlar üzrə işləyir. Bakının bütün küçələri belə avtobusların hərəkəti üçün uyğunlaşdırılmayıb, bizim çoxlu dar küçələrimiz var və orada belə avtobus dönə bilməz. Buna görə də belə avtobuslar üçün ən optimal marşrutu nəzərdən keçiririk. Fikrimcə, artıq gələn il bu avtobuslar xəttə çıxacaqlar".

O əlavə edib ki, şirkət xətlərdə böyük tutumlu olmaqla az sayda avtobusların istifadə edilməsini prioritet hesab edir: "Bunların arasında şəbəkənin sağlamlaşdırılması, yeni xətlərin quraşdırılması və sair işləri sadalamaq olar. Rayon və şəhərlər üzrə itkilərin 15-20% aşağı salınmasına nail ola bilmişik. Bizim işimizi ən çox əngəlləyən primitiv üsullarla boru xətlərinin çəkilməsidir".

# Təhsil haqlarının artırılması məsələsi də gündəmə gəldi

**Manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar hazırda ali məktəblərdə təhsil alan tələbələr üçün təhsil haqlarının artırılması məsələsi gündəmdə deyil. Virtualaz.org bildirir ki, bunu dekabrın 29-da keçirilən mətbuat konfransında Təhsil Nazirliyi Aparat rəhbərinin müavini Yaqub Piriyev deyib.**

Onun sözlərinə görə, təhsil haqlarının müəyyənləşdirilməsi ali məktəblərin səlahiyyətinə daxildir: "Bu il də daxil olmaqla, bu ilə qədər qəbul olunmuş tələbələrin təhsil haqları hazırkı həddə saxlanılacaq. Yeni tədris ilində təhsil haqlarının artması ya azalması məsələsinə gələn il mart ayında qəbul planı hazırlanarkən ali məktəblərin təklifləri nəzərə alınmaqla baxılacaq və bu məsələ analiz olunacaq".



# AZAL aviabiletlərin qiymətini endirdi

**"Azərbaycan Hava Yolları" QSC Moskva ("Vnukovo" hava limanı), Dubay ("Əl-Məktum" hava limanı) İstanbul ("Sabiha Gökçen" hava limanı) və Antalyaya aşağı büdcəli reyslərə aviabiletlərin qiymətinin endirilməsini elan edir.**

Virtualaz.org QSC-nin mətbuat xidmətinə istinadən bildirir ki, 2016-cı il yanvarın 5-dən etibarən yuxarıda göstərilən istiqamətlərə aviabiletlərin qiyməti Bakıdan uçmaqla cəmi 89 avro təşkil edəcək.

Həmçinin yanvarın 5-dən etibarən bütün beynəlxalq istiqamətlər üzrə reyslər, o cümlədən sözügedən aşağı büdcəli reyslər Heydər Əliyev Beynəlxalq Hava Limanının birinci terminalından yerinə yetiriləcək.

Aviaşirkət avroya nisbətdə milli valyutanın məzənnəsinin dəyişməsi ilə əlaqədar qiymətlərə yenidən baxılmasını davam etdirir. Bundan öncə şirkət Moskva, Sankt-Peterburq, Kazan, Mineralnıe Vodı, İstanbul, Ankara, Antalya, Təl-Əviv, Tehran, Dubay, Aktau, Kiyev, Lvov, Minsk, Tbilisi və s. kimi şəhərlərə aviabilet qiymətlərə yenidən baxılacağını elan etmişdi.

AZAL-ın vitse-prezidenti Eldar Hacıyev deyib: "Aşağı tarifli uçuşların siyahısı bundan sonra da genişlənəcək. Bu yaxınlarda Bakı-Moskva (Domodedovo hava limanı) reysinə yeni aşağı büdcəli Promo tarifi tətbiq edilib ki, bu tarifə baqaj daxil edilməyib. Həmçinin növbəti yay mövsümündə Alanya kurort şəhərinə yeni aşağı tarifli reysin açılması planlaşdırılır. Gələn il "Azərbaycan Hava Yolları" bir çox istiqamətlər üzrə aşağı büdcəli tariflərin siyahısını genişləndirməyə davam etdirəcək".

# Maşın alıb-satanların nəzərinə: gömrük depoziti ləğv olunur

**"Gürcüstandan Azərbaycana gələn avtomobillərə görə tələb olunan depozitin aradan qaldırılması istiqamətində müzakirələr aparılır".**

Bu barədə Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyev bildirib.

DGK sədrinin sözlərinə görə, bu məsələ ölkə başçısı İlham Əliyevin Gürcüstana səfəri çərçivəsində bu ölkədə yaşayan azərbaycanlılar tərəfindən qaldırılıb.

"Bu, məcburi atılan bir addım idi. Bu sahədə artıq Sərhəd Qoşunlarının komandanlığı ilə razılaşmalar əldə olunub. Ümid edirik ki, 15-20 gündən gec olmayaraq depozit məsələsinin aradan qaldırılması istiqamətində razılıq əldə olunacaq" - deyə A.Əliyev bildirib.

Qeyd edək ki, Gürcüstandan Azərbaycana müvəqqəti gətirilən nəqliyyat vasitələrinə görə gömrük ödənişlərinin həcminə ekvivalent məbləğdə pul vəsaiti depozit hesaba qoyulmalıdır.

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Siyasi dustaqların azadlığa yolunu Smitmi bağladı-ekspert rəyləri

**Dekabrın 28-də prezident İlham Əliyevin cəmiyyətin çoxdan gözlədiyi əfv sərəncamı ictimaiyyətin gözləntilərini doğrultmadı. Aylar öncədən Yeni illə bağlı böyük əfv sərəncamı veriləcəyi və az qala bütün siyasi məhbusların azadlığa buraxılacağı deyilirdi. Amma göründüyü kimi, deyilənlərin tam əksi oldu. Çoxları hesab edir ki, hakimiyyətin bu qərarına səbəb dekabrın 17-də ABŞ-ın Helsinki Komissiyasının sədri konqresmen Kris Smitin Azərbaycanda yüksək vəzifəli məmurlara sanksiyaların tətbiq olunması ilə bağlı Konqresə təqdim etdiyi qanun layihəsi səbəb oldu.**



**Səidə Qocamanlı:** "Beynəlxalq aləmdə bu addım birmənalı qarşılanmayacaq"
**Arzu Abdullayeva:** "Nümayişkaranə şəkildə siyahıdakıları azad etməkdən imtina edildi"
**Şahin Cəfərli:** "Azərbaycanın sanksiyalara dözüm limiti varmı?"

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı** "Yeni Müsavat"a açıqlamasında dedi ki, 210 məhbusun azadlığa buraxılmasını alqışlayırlar: "Bildiyiniz kimi, biz 22 nəfərin adını təqdim etmişdik. İşçi Qrupu olaraq, bu məhbusların azadlığa buraxılmasını xahiş etmişdik. Təəssüf ki, onlardan heç kimə bu sərəncam şamil olunmadı. Amma ümidimiz qırılmamalıdır. Onların azadlığını yaxınlaşdırmaq üçün əlimizdən gələni edəcəyik. Hesab edirəm ki, beynəlxalq aləmdə bu addım birmənalı qarşılanmayacaq. Azərbaycana qarşı olan təzyiqlər davam edəcək. Başa düşürəm ki, siyasi məhbus məsələsini Qərb alver predmetinə çevirib. Bu il ikinci dəfə Qərbdən bizə təzyiqlər oldu. Birinci may ayında, bir də son olaraq dekabrda. Qəribə təsadüfdür. Məlum olurdu ki, əfv olacaq, həmin an Qərb tərəfindən hansısa təpkilər baş verirdi. Nəticədə xoşagəlməz hadisələr yaşanırdı. Azərbaycana qarşı xahiş yox, tələblər səslənirdi. Bu da təbii ki, hökuməti qıcıqlandırır. May ayında baş verən təzyiq ilin sonunda təkrarlandı. Bunlar təsadüfdürmü? Bu ilin aprel ayında İşçi Qrupunun iclasları keçirilirdi. Əfvə çoxlu sayda siyasi məhbusun adını təqdim etmişdik. Amma may ayında baş verən xoşagəlməz hadisə bunun qarşısını kəsdi. İndi də eyni situasiya. Bu qərarın verilməsində Kris Smitin də kifayət qədər rolu oldu. Həm Qərbdə, həm də ölkənin daxilində müəyyən qüvvələr var ki, bu problemin həllini istəmirlər. Bunu etiraf etmək lazımdır. Bundan təzyiq vasitəsi kimi istifadə edirlər. İstəyirlər ki, Azərbaycanı daim təzyiq altında saxlasınlar. Bu kimə lazımdır? 22 nəfərin arasında elə şəxslər var idi ki, əfv ərizəsi belə yazmışdılar, xəstə olanlar da var idi. Siyahımızda cəzasının böyük bir hissəsini çəkənlər də var idi. Qanunvericiliyə uyğun olaraq, onları azadlığa buraxmaq olardı. Hətta bir neçə ay həbs müddəti qalan da var idi".

**İşçi Qrupunun digər üzvü Arzu Abdullayeva narazılığını gizlətmədi:** "Nə bizim sözümüzə dəstək verildi, nə də beynəlxalq təşkilatların. Bunun arxasında nə durur, bizim üçün anlaşılmazdır. O qədər müraciətlər oldu, həm xoşluqla xahiş olundu, həm də sanksiyalar məsələsi gündəmə gəldi. Müəmmalı vəziyyətdir. Nümayişkaranə şəkildə siyahıdakıları azad etməkdən imtina edildi. Niyə belə? Anlamıram".

**Politoloq Şahin Cəfərli konqresmenin qanun layihəsinin əfvə ciddi təsir etdiyini istisna etmir:** "Ola bilsin, Kristofer Smitin məlum qanun layihəsi olmasa, tanınmış məhbuslardan bir neçəsi əfv sərəncamı ilə azadlığa buraxılacaqdı. Əslində belə siqnallar da gəlirdi. Görünür, iqtidar xarici təzyiqlərə boyun əymədiyini və əyməyəcəyini növbəti dəfə nümayiş etdirdi, bu mövqeyində qəti olduğunu göstərmək məqsədilə həbsdəki siyasətçilərin və QHT nümayəndələrinin adlarını əfv siyahısına salmayıb. Dövlətin bu cür impulsiv-emosional reaksiyalarla idarə olunmasını doğru saymıram. Hakimiyyət öz müstəqil iradəsi ilə qərar qəbul edirsə, hansısa kənar təsirlərə fikir verməməlidir. Əgər məhbusları buraxmaq barədə bir düşüncə var idisə, Amerikada aparılan müzakirə, gündəmə gətirilən layihə buna niyə təsir etməlidir ki? Məsələn, Leyla və Arif Yunuslar Smitin təşəbbüsündən əvvəl azad edildilər, digər bir sıra məhbusların əfvlə buraxılması da məhz bu siyasətin davamı kimi qiymətləndiriləcəkdi, sanksiya qorxusu ilə atılan addım kimi yox. Bu durumda Smitin layihəsi böyük ehtimalla gündəmdən çıxacaqdı. Ən azı Obama administrasiyası Azərbaycan hakimiyyətinin pozitiv addımlarını nəzərə alaraq layihəyə dəstək verməyəcəkdi. Hazırda yaranmış vəziyyət Smitin mövqeyini gücləndirir. Artıq Obama administrasiyası layihəni əngəlləmək üçün əlindəki vasitələrdən istifadə etməyə bilər".

**Ş.Cəfərli ABŞ-la qarşıdurma yolunun seçilməsini doğru hesab etmir:** "Supergüc Amerika ilə konfrontasiya kursunun seçilməsi rasional yol deyil. Söhbət ondan getmir ki, Azərbaycan və digər ölkələr Amerikanın dediyi ilə hərəkət etməlidir. Daxili gərginliyin aradan qaldırılması, demokratik islahatların aparılması və iç barış başqa dövlətlərə yox, bizim özümüzə lazımdır. Heç kim bizi ATƏT-ə, Avropa Şurasına, digər mütərəqqi təsisatlara zorla qoşulmağa məcbur etməyib. Milli təhlükəsizlik konsepsiyasında Avrointeqrasiyanı hədəf kimi özümüz müəyyənləşdirmişik. NATO ilə əməkdaşlığa könüllü getmişik və bunu davam etdiririk, Avropa İttifaqına strateji əməkdaşlıq sazişini biz təklif etmişik. Bütün bu təşkilatlarla səmərəli əməkdaşlığın yolu onların oyun qaydalarına riayət etməkdən və tamamilə könüllü şəkildə götürülmüş, altına imza atılmış öhdəlikləri yerinə yetirməkdən keçir. Bunları etmək təzyiqə boyun əymək deyil. Xüsusən getdikcə ağırlaşacağı gözlənilən iqtisadi böhran şəraitində Qərblə, müasir dünya ilə münaqişəyə getməklə biz nəyə nail olacağıq? Azərbaycanın sanksiyalara dözüm limiti varmı və nə qədərdir? Sabah beynəlxalq maliyyə-kredit institutlarının qapıları üzümüzə bağlanarsa, kritik anda hara üz tutacağıq? Real alternativ varmı? Rusiyanın durumu məlumdur. Moskvanın "qara gün" üçün müəyyən ehtiyatı olsa da, başqaları ilə bölüşəcək səviyyədə deyil. Moskvanın siyasi dəstəyinə və himayəsinə müəyyən dövr üçün ümid bəsləmək olar, lakin bu da etibarlı yol deyil. Üstəlik, bizim işğal kimi çox ağır problemimiz də var və torpaqlarımızı işğal edən qonşumuz birbaşa Rusiyanın himayəsindədir. Azərbaycan nə etsə belə, Rusiyaya heç vaxt Ermənistan qədər yaxın ola bilməz. Ermənistanla eyni statusa malik olmaq üçün Rusiyanın patronajlığı altındakı inteqrasiya layihələrinə qoşulmalı, rus ordusunu ölkəmizə qaytarmalıyıq, bu isə müstəqillikdən imtina etmək deməkdir. Mən hələ də iqtidarın rasional yol seçəcəyinə inanmaq istəyirəm. Sanksiyalar ölkəmizi çox ağır duruma sala bilər, bizim Rusiya, İran qədər dözüm limitimiz yoxdur. Yüksək texnologiyaların istehsalçıları ilə konfrontasiyaya getmək və Azərbaycanı müasir dünyadan təcrid etməyin nə ilə nəticələnə biləcəyini yaxşıca düşünmək və götür-qoy etmək lazımdır".

Məhbus ailələri də əfvdən sonra məyusluqlarını gizlədə bilməyiblər. Bu, mətbuat və sosial şəbəkələrdə açıq şəkildə özünü büruzə verir.

❑ **Cavanşir ABBASLI**

---

# Ötən və gələn il...



**Hüseynbala SƏLİMOV**

**Bəli, bəlkə də ondan başlamaq daha düzgün olardı ki, ötməkdə olan ilin əvvəlində və bir də sonunda bir jurnalist kimi ayağımız yerdən, əllərimiz isə göylərdən üzüldü...**

Nə edəcəyik, necə edəcəyik, bunu bir Allah bilir... İnanın, təxminən 25 il fasiləsiz olaraq jurnalistika ilə məşğul olandan sonra başqa sahələrə baş vurub nəsə axtarmaq elə də asan deyil...

Həm də bu il bizi iqtisadi böhranla mükafatlandırdı. Bəlkə də böhran olmasaydı nəsə tapmaq, nəyisə qurmaq mümkün olardı. Fəqət, böhran bütün təşəbbüsləri alt-üst edir...

Qərəz, jurnalistin öz problemlərindən gileylənməyə haqqı yoxdur. Bir jurnalist dostum vardı, artıq rəhmətə gedib. Həmişə deyirdi ki, çalışıram şəxsi uğursuzluqlarım yazılarımda duyulmasın, hiss edilməsin. Mən də onun bu qaydasının tərəfdarıyam. Amma jurnalistikanın problemləri bir adamın, bir və ya bir neçə yazarın problemidirmi?..

Düşünmürəm... Televiziyalar və radiolar çox məhdud çevrədə fəaliyyət göstərirlər. Əgər onlar hadisələrlə bağlı xəbərlər verirlərsə, elə bunun özü də çox böyük işdir. Bir məsələ var ki, onlar bu gün mətbuat qədər proseslərin dərinliyinə vara bilmirlər və sadəcə, xəbərləməklə işlərini bitmiş hesab edirlər...

Mətbuat böyük qüvvə idi... Ona görə də onun dərdi-səri böyüdü. Bir də ayılıb gördük ki, necə deyərlər, lələ köçüb, yurdu qalıb...

Nə etmək olar? Nə demək olar?.. Məlumdur ki, ölkə ciddi şəkildə iqtisadi böhrana ilin sonunda girdi, ilin əvvəlindəki bir növ məşq idi. Ona görə də heç bir əziyyət çəkmədən güman etmək olar ki, növbəti ilin də əsas dərdi-səri elə iqtisadi böhran olacaq...

Bu yaxınlarda OPEK-ə istinadən belə xəbər yayıldı ki, neftin qiyməti hər il beş dollar artacaq. Amma biz o qədər də nikbin deyilik. Ona görə ki, ABŞ hələ indi öz ehtiyatlarını bazara çıxarmağa hazırlaşır və İran hələ indi istehsal güclərini artırmağı düşünür. Üstəlik, Rusiya problemi hələ həll olmayıb...

Elə bu səbəbdən də nikbin notlar üçün əsas yox. Görək, nə olur?.. Böhranın və qiymət artımının fəsadlarını hələ çox yaşayacağıqmı?..

O ki qaldı digər məsələlərə, ölkədə süni şəkildə olsa da, siyasi sabitlik bərqərar olub - müxalifət o qədər zəifləndilib ki, onun dirçəlməsinə ümid bəsləmək velosipedin uça biləcəyinə inanmaq kimidir. Amma iqtisadi böhran zamanı o, əlavə impuls ala bilər, çünki böhranlar zamanı narazılıq artır: necə deyərlər, qiymətlər bahalaşırsa, hökumət dərhal "ucuzlaşır"...

Amma ciddi siyasi proseslər gözləmirik. Növbəti ildə seçki-filan da olmayacaq ki, heç olmasa, maraqlı bir söz eşidəcəyinə ümid edəsən. Həm də maraqlı sözü deməyə imkan verirlərmi?..

Son seçkilərin demək olar ki, hamısında müxalifəti efir vaxtından məhrum ediblər. Elə bu səbəbdən seçki olsaydı belə, maraqlı heç nə olmayacaqdı. İndi hətta bəyanat da səslənmir. Bəlkə də ona görə ki, bəyanatları da səsləndirmək istəyənlər tapılmır?..

Bir sözlə, bizi "boz" və ağır bir il gözləyir: güman ki, işsizlik artacaq, gəlirlər azalacaq...

Digər problemlərə, məsələn, Qarabağ probleminə gəldikdə, ola bilsin ki, gəlməkdə olan ilin sonunda prezidentlərin daha bir görüşü olacaq və o, həmişə olduğu kimi, heç nəyi həll etməyəcək, necə ki, bu yaxınlarda keçirilən görüş heç nəyi həll etmədi...

Məni daha çox başqa bir məsələ narahat edir. Söhbət konqresmen K.Smitin təşəbbüsündən gedir. Düzdür, hələ konkret olaraq heç nə məlum deyil. Amma hökumətimiz düşündüklərini etsə, bunun əsla yaxşı nəticələri olmayacaq...

Yada salmaq lazımdır ki, biz Rusiya deyilik. Bizim heç İran və yaxud Şimali Koreya olmaq imkanımız da yoxdur. Ona görə də gəlin ayaqlarımızı yorğanımıza görə uzadaq. ABŞ böyük dövlətdir. Ona bizsiz keçinmək elə bir problem deyil. Biz isə ABŞ olmadan çox çətinlik çəkərik. Nə baş verər? Ən azı Rusiyanın bizə təzyiqləri arta bilər. İndi biz böyük güclər arasında manevr və necə deyərlər, var-gəl edirik. ABŞ buradan əlini götürsə, artıq belə manevrlərə yer qalmayacaq - biz Rusiya ilə üzbəüz dayanacağıq. Ola bilsin, bu perspektiv hökuməti elə də narahat etmir. Amma biz çox şeydən keçdik ki, ölkə müstəqil olaraq qalsın. İndi nə edək? Müstəqillikdən də keçəkmi?..

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

**Dekabrın 29-da Milli Məclisin payız sessiyasının sonuncu plenar iclası keçirildi. Spiker Oqtay Əsədov ilin son iclası olduğu üçün cari məsələlər ətrafında çıxış etməyə şərait yaratdı. İlk söz alan deputat Rövşən Rzayev gözlənildiyi kimi, ABŞ-a qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsini təqdim etdi. "Mən Milli Məclisin deputatı kimi öz konstitusion hüquqlarımdan istifadə edərək qərar layihəsi hazırlamışam" - deyən deputat əlavə etdi ki, bu, ABŞ Konqresinə Azərbaycanla bağlı təqdim olunan qərəzli qətnamə layihəsinə cavabdır.**



# Milli Məclisdə sensasion çıxışlar

## Deputatlar manat siyasətindən və Amerikaya qarşı sənəddən narazılıq etdilər; dövlət komitələrinin ləğvi məsələsi gündəmə gətirildi

Deputat bildirdi ki, sənədi Dağlıq Qarabağın Azərbaycan icmasının İdarə Heyətinin üzvü kimi hazırlayıb: "Nəyə görə ABŞ Azərbaycana qarşı törədilən faciələrə, Xocalı soyqırımına bir dəfə də olsun münasibət bildirməyib? ABŞ-ın özündə insan hüquqları kifayət qədər pozulur, bu barədə mənim hazırladığım qərar layihəsində də əksini tapıb". R.Rzayev spikerdən xahiş etdi ki, o, qərar layihəsinin daha təkmil formada hazırlanması və Milli Məclisin komitəsində müzakirə olunmasına göstəriş versin.

Spiker O.Əsədov qərar layihəsini Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyevə təqdim etməyi tövsiyə etdi. Eyni zamanda Bahar Muradova, Səməd Seyidov və Əli Hüseynlinin rəhbərlik etdiyi birgə komitələrin müzakirəsinə çıxarılması barədə tapşırıq verdi.

Daha sonra deputatlar ölkə vətəndaşlarını narahat edən məsələlər - manatın və neftin qiyməti ilə bağlı çıxışlar etdilər, təkliflər səsləndirdilər.

**Deputat Vahid Əhmədov ilk olaraq vəziyyətlə bağlı narahatlığını bölüşdü:** "Təklif edirəm ki, əhalinin 10 min dollar olan kreditləri köhnə məzənnə ilə ödənilsin. Mən Azərbaycan hökumətindən xahiş edirəm ki, əhaliyə kömək etsin. Bundan əlavə, əhalinin sığortalanan əmanətlərinin həcminin 30 min AZN-dən 500 min manata qaldırılmasını təklif edirəm. Azərbaycanda 43 bankın olması çoxdur. Bu bankların bəziləri məmurlara, ayrı-ayrı adamlara xidmət etdiyi üçün onların sayının azaldılmasına, iri bankların yaradılmasına ehtiyac var. Azərbaycan hökuməti gecə-gündüz, çox çevik işləməlidir ki, daha ağır problemlərlə üzləşməyək. Azərbaycan müstəqillik dövründə belə hadisələri çox görüb, uğurla çıxmışıq. İnanıram ki, müvafiq tədbirlər görülsə, bu vəziyyətdən də çıxacağıq. Mən Azərbaycan əhalisini də təmkinli olmağa çağırıram".

"Cənab prezident tərəfindən hökumətə ciddi tapşırıqlar verilib. Qarşıdakı aylarda əhali bu tədbirlərin təsirini hiss edəcək" deyə, spiker Oqtay Əsədov deputata reaksiyasında bildirdi.

**Deputat Fazil Mustafa dedi ki, dünyada gedən proseslər təbii olaraq Azərbaycana da təsir göstərir. Ancaq on il ərzində gələn gəlirlərin xərclənməsində israfçılıq olduğu üçün belə vəziyyətlə üzləşmişik:** "Hökumətin iqtisadi komandasının nə qədər zəif və hazırlıqsız olmasını devalvasiya bir daha üzə çıxartdı. 21 fevral devalvasiyasında da əhaliyə heç bir normal izahat verilmədi. Xatırlayıram, Milli Məclisdə Zahid Oruc sinəsini qabağa verib bunun haqlı qərar olduğunu sübut etməyə çalışdı. Bu gün yoxsul-varlı təbəqənin olmasından asılı olmayaraq, hamı 50 faiz yoxsullaşdı. Bu gün konkret demir ki, inhisarçılıq ləğv olunacaqmı? "Naxçıvanbankı"nda 1 milyon dollar kredit köhnə kursla hesablanır. Ancaq Mərkəzi Bank ölkə üzrə bunu tətbiq etməyi mümkün saymır. Bu gün sahibkarları günahkar çıxartmaq olmaz. "Sədərək"də, "Binə"də çarəsiz qalan vətəndaşların taleyini düşünərək addımlar atılmalıdır. Müəyyən islahatlar həyata keçirilməlidir, qənaət birinci dövlətdən, yuxarı eşelondan başlamalıdır ki, aşağılar da bu rejimə öyrəşə bilsin".

**Spiker bir daha dedi ki, bu istiqamətdə bütün tədbirlər görülməyə başlanılıb:** "Yaxın günlərdə bunun təsirini görəcəksiniz".

**Deputat Zahid Oruc da manat və neft mövzusundan danışdı:** "Biz başa düşməliyik, bahalı neft dövrü arxada qaldı. Bəli, biz neft pullarından maksimum istifadə etməyə çalışdıq. Ancaq Azərbaycan neftsiz yaşaya bilər. Neftsiz eraya hazırlıqlar həyata keçirilməlidir. Çoxları deyirdi ki, bu millət musiqi həvəskarıdır, şeir sevir və rüşvətə meyllidir. Ancaq "ASAN xidmət" bunun belə olmadığını sübut etdi. Lazımsız nazirlik və komitələrdən xilas olmaq lazımdır". "Üzən məzənnə" barədə danışan deputat "imkan verməliyik ki, manat Xəzər dənizində buruqlar arasından üzüb, quruya çıxsın" söylədi.

**Deputat Əli Məsimli hökuməti təcili tədbirlər görməyə, xüsusən bayram günləri ehtiyatlı olmağa çağırdı, dedi ki, əks halda, "qara bazar" formalaşacaq:** "50 faiz devalvasiya olubsa, bu ağırlığı tam olaraq əhalinin üzərinə atmaq düzgün deyil. Ya əhaliyə möhlət verilməsi, ya faizlərin aşağı salınması, ya köhnə qiymətlərin tətbiqi həyata keçirilməlidir. Xüsusən aşağı və orta təbəqənin əmək haqları və təqaüdləri müvafiq olaraq qaldırılmalıdır. Neftin 25-30 dollar olmasına da hazır olmalıyıq, hökumət qabaqlayıcı tədbirlər görməlidir. İnhisarçılıq, məmur özbaşınalığı və korrupsiyanı aradan qaldırmaq şərtilə sahibkarlığın inkişafına geniş meydan versək, bir müddət sonra ölkə yenə sabit yolu ilə həyatına davam edəcək".

**Deputat Tahir Rzayev** ödənişli təhsil alan gənclərin problemlərindən danışdı. Dedi ki, təhsil haqqı ildən-ilə artır, xüsusilə 1-ci kursda oxuyanlar təhsil haqqını birdəfəlik ödəyə bilmirlər. Onlar istəyirlər ki, heç olmasa təhsil haqqını hissə-hissə ödəsinlər, bəzi rektorlar bununla razılaşmır. Deputat spikeri bu məsələyə müdaxilə etməyə çağırdı.

**Deputat Qüdrət Həsənquliyev dedi ki, T.Rzayevi narahat edən məsələ onun özünü də narahat edir:** "2015-ci il Ermənistanın işğalçı ordusunun Azərbaycanda ən çox itki verdiyi ildir. Ona görə də erməni lobbisi narahatdır və Azərbaycana qarşı ABŞ-ın təzyiq göstərməsi üçün hərəkətə keçib. Amma sözün doğrusu, mən parlamentin bununla bağlı qanun qəbul etməsini düzgün hesab etmirəm".

**Q.Həsənquliyev iqtisadi vəziyyətlə bağlı da fikirlərini bölüşdü:** "Dünyanın heç yerində Azərbaycandakı qədər yüksək bank faizləri yoxdur. 42 bankın hərəsi "Naxçıvanbank" kimi 370 vətəndaşa güzəşt etsə, vəziyyət dəyişər".

**Q.Həsənquliyev ardınca sensasion fikir söylədi:** "AXC-nin uğursuz bir kadrı kimi, çox təəssüf ki, indiki iqtidar Elman Rüstəmovu uzun illər bu postda saxladı".

**Spiker isə etiraz etdi və şəxsiyyət haqqında danışarkən ehtiyatlı olmağa çağırdı:** "Xalq Cəbhəsindən gələnlər çoxdur, nə olsun, deputat da olmaq olmaz?"

Eyni zamanda o, bankların vətəndaşlara güzəşt etməsinə də etiraz etdi.

**Siyavuş Novruzov isə Azərbaycanın neft pullarından ən gözəl formada istifadə etdiyini dedi və israfçılığın olmadığını bildirdi:** "Biz də Liviya kimi Neft Fonduna yığsaydıq, başqa-başqa ölkələr yığıb aparardılar".

**O da dedi ki, Mərkəzi Bank vətəndaşların kreditləri ilə bağlı sıfırdan başlamalıdır:** "Kifayət qədər gəlirlər götürüblər, gətirib ortaya qoysunlar, birdəfəlik bu məsələ qurtarsın. Hər ay 2 milyard manat xərclənib. Qoy, Mərkəzi Bank 2 milyardı xərcləsin, bu problem birdəfəlik həll olunsun".

**S.Novruzov gözlənilmədən R.Rzayevin qanun layihəsinə də etiraz etdi. Dedi ki, Milli Məclis adından belə qərar qəbul edərkən düşünməliyik:** "Bu, Amerika dövlətinin yox, bir ermənipərəst konqresmenin mövqeyidir. Mətbuatda bir çoxları Amerika dövlətinə, Konqresinə qarşı mübarizəyə keçib. Biz dostluq qrupunu işə salmalıyıq".

**O.Əsədov dedi ki, R.Rzayev nə Azərbaycan hökumətidir, nə də parlamentidir, bir parlament üzvüdür, qərar layihəsi hazırlayıb:** "Komitədə baxsınlar, götür-qoy etsinlər. Bu, çox böyük təxribatdır, biz də bilirik ki, bu, Amerika dövlətinin mövqeyi deyil. Ancaq lazım olsa, məsələyə baxacağıq. İstəmirəm ki, bu məsələni gərginləşdirsinlər".

İclasda yeni İnzibati Xətalar Məcəlləsi də qəbul edildi. 40 fəsil, 608 maddədən (əvvəlki 35 fəsil, 458 maddə idi) ibarət yeni Məcəllədə bir sıra sahələrdə cərimələrin sərtləşdirilməsi və digər yeniliklər nəzərdə tutulur. Lakin Məcəllə 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

Ümumiyyətlə, son iclas bir sıra deputatların kəskin tənqidi çıxışları ilə yadda qaldı. Məsələn, **deputat Aytən Mustafayeva** Xarici İşlər Nazirliyinin özünü "toxunulmaz qurum" elan etdiyini, geri çağırılan diplomatların Azərbaycanda işsiz qaldığını, onlara texniki işlərin təklif olunduğunu deyib nazirliyi tənqid etdi. Daha sonra xanım deputat ölkədə kifayət qədər idman komplekslərinin olduğu halda onların pullu xidmət göstərdiyi üçün qapılarının bağlı qaldığını, gənclərin idmanla məşğul ola bilmədiyini söylədi. Deputatın tənqidləri spikeri də əsəbiləşdirdi və ona irad bildirdi.

**Deputat Zahid Oruc** isə rayonlarda səhiyyə obyektlərinin olmamasını ciddi problem kimi önə çəkdi. "Lisenziyalar və icazələr haqqında" Qanun layihəsinin birinci oxunuşunun müzakirəsi zamanı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsini yanacaqdoldurma məntəqələri üzərində məhz lisenziyalaşdırma ilə bağlı rüşvət pramidası yaratmaqda günahlandırdı. Onun çıxışına replika verən deputat Yevda Abramova isə Z.Oruc "Yaxşı ki, yəhudilər sədarətdə əyləşmir" deyə, ironiyalı reaksiya verdi.

Milli Məclis "Kütləvi informasiya vasitələri haqqında" Qanunda da dəyişiklik etdi. Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov bildirdi ki, layihə "Televiziya və radio yayımı haqqında" Qanunda dəyişikliklər edilməsini nəzərdə tutur. Qanunun 19-cu maddəsinə edilən dəyişiklik televiziya və radio yayımçılarının fəaliyyətinin dayandırılması və ya onların fəaliyyətinə xitam verilməsinin təsisçinin və məhkəmənin qərarı ilə yanaşı, "Televiziya və radio yayımı haqqında" Qanunda nəzərdə tutulan hallarda teleradio yayımı sahəsində müvafiq dövlət orqanının qərarı ilə də həyata keçirilməsini nəzərdə tutur.

**Lakin bəzi deputatlar təklif olunan dəyişikliyə etiraz etdi. Deputat Qüdrət Həsənquliyev dedi ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanuna dəyişiklik edilməsi Milli Televiziya və Radio Yayımı Şurasının (MTRŞ) sədri Nüşirəvan Məhərrəmlinin ANS-i bağlamasına səbəb olacaq:** "Çünki onların qarşılıqlı əməkdaşlığı yoxdur". **Deputat bildirdi ki, mətbuatda hər gün MTRŞ-nin ANS-i cərimələməsi ilə bağlı xəbərlər yayılır:** "Qanuna edilən dəyişiklik onların ANS-i bağlamasına səbəb olacaq. Heç olmazsa, müvafiq dövlət orqanları məsələyə müdaxilə etsin və normal əməkdaşlıq mühiti yaradılsın. Düşünürəm ki, bu dəyişikliyin edilməsi tezdir və sui-istifadə hallarına yol açacaq. ANS ilk özəl televiziyamızdır və bu gün biz onlara ögey münasibəti görürük".

**Deputat Fazil Mustafa isə dedi ki, qanun layihəsi qəbul olunarsa, o zaman məhkəmənin işinə ehtiyac olmayacaq:** "Belə olanda məhkəmə hakimiyyəti icra orqanı ilə bölüşdürülür. Buna diqqət edilməlidir. Heç olmazsa, hansısa qurumun qərarı ilə televiziyanın fəaliyyəti üç gün dayandırıla bilər və sonra məhkəmədə nəyə görə bağlanması barədə əsaslandırılmalıdır. Bu olmasa, müəyyən icra qurumu məhkəmə funksiyasını mənimsəyir və bu, problemdən çıxış yolu deyil. Bunun yolu məhkəmədən keçir. Belə olarsa, dəyişiklik konstitusiyaya uyğun olar".

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov isə cavabında qeyd etdi ki, "Televiziya və radio yayımı haqqında" Qanun MTRŞ-nin hər hansı televiziyanı bağlamasına icazə verir:** "Televiziya strateji bir sahədir. Azərbaycanın bütün regionlarında televiziyalar yayımlanır. Ola bilər ki, hər hansı televiziya ölkə əleyhinə müəyyən çağırışlar etsin. Ancaq bunun üçün müvafiq məhkəmələr var və onların qərarı olmalıdır. Hesab edirəm ki, bu qanunla bağlı oxşar təcrübə bir çox dövlətlərdə var. Mən qanuna edilən dəyişikliklərə səs verəcəyəm".

**Müzakirələrdən sonra layihə səsverməyə qoyuldu və cəmi 2 nəfər əleyhinə olmaqla qəbul edildi.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

**Xəbər verdiyimiz kimi, dekabrın 28-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə "Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirov 6 il müddətinə azadlıqdan məhrum edildi. Jurnalist barəsindəki qərar heç də birmənalı qarşılanmayıb.**




# "Raufu tutanlar hamısı həbsdədir..."

Çoxları Mirqədirovun məhkəmə zalından azadlığa buraxılacağına ümid edirdi. Buna səbəb onunla birlikdə eyni iş üzrə ittiham olunan Leyla və Arif Yunusların azadlığa buraxılması, dövlət ittihamçısının ona qarşı irəli sürülən 274-cü maddə (dövlətə xəyanət) üzrə ən yüngül cəzanı istəməsi olmuşdu. Amma gözləntilər özünü doğrultmadı. Vicdan məhbusu ən ağır həbs cəzası aldı. Artıq hər kəsdə bir sual yaranıb. Hakimiyyət Mirqədirova qarşı niyə qəzəblidir? Həbsdə olduğu 1 il 8 ay müddətində daim loyal münasibəti ilə digər siyasi məhbuslardan fərqlənən jurnalistin "bağışlanmamasına" səbəb nədir?

**"Ayna- Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı əməkdaşına qarşı sərt davranışın 2014-cü ilin aprelindən başladığını söylədi:** "Həbs, ümumiyyətlə, olmamalı idi. Ona qarşı irəli sürülmüş maddə üzrə ən azı 10 il həbs cəzası almalı idi. Amma indi 6 ilə düşüb. Azərbaycanda belə bir anlayış var ki, bir işi görürsənsə, onun sonradan yanlış olduğunu başa düşdüyündə belə açıq şəkildə bunu söyləmək dəb deyil. Üzr istəmək bizdə çətin məsələdir. Sanki səhvini anlayıb üzr istəsə, kimsə buna pis baxacaq. Rauf Mirqədirovun həbsinin əsassız olduğunu o göstərə bilər ki, 10-15 il yox, 6 il həbs cəzası verdilər. Bizdə "buna da min şükür" deyirlər. Yenə də ümidliyəm. Bundan sonra Apelyasiya Məhkəməsi var. Doğrudur, vaxt gedir, Rauf həbsdə qalıb. Mənə elə gəlir ki, qarşıdakı məhkəmə cəzanı bir az da yumşaldacaq. Məntiqlə eyni iş üzrə ittiham olunan Leyla və Arif Yunuslar səhhətindəki vəziyyətlə əlaqədar şərti də olsa azadlığa buraxılıblar. İstintaqın dediyinə görə, Raufu onlarla birlikdə-dilim gəlmir deməyə- 274-cü maddə ilə ittiham ediblər. İttiham olunanlardan ikisi azadlıqdadırsa, Mirqədirov da ən azından onlar kimi azadlıqda olmalıdır. Nə gedirsə, Raufdan, özümüzdən gedir. O, gec-tez olsa da, azadlığa çıxacaq. 6 ildən daha tez azadlığa çıxacağına ümid edirəm. Əgər məhkəmə son günlərdəki sanksiya hədələrinə, Avropadan gələn təzyiqlərə məhəl qoymadan Raufa bəraət versəydi, o zaman deyərdik ki, Azərbaycanda məhkəmələr müstəqildir, heç kəsdən asılı deyil, müstəqil şəkildə qərar qəbul edə bilir. Təəssüf ki, tək mənim deyil, ictimaiyyətin gözlədiyi olmadı. Əksəriyyət Raufun azad olunacağına ümid edirdi. Hər halda, yenə ümidimi itirmirəm".



**Elçin Şıxlı:**
"Səhvini anlayıb üzr istəsə, kimsə buna pis baxacaq..."



**Fuad Ağayev:**
"Yüksək vəzifə daşıyan şəxslərdən Ermənistana gedənlər olub"

**E.Şıxlı beynəlxalq təşkilatların Mirqədirova verilən hökmə reaksiya verməmələrinə də toxundu:** "Beynəlxalq təşkilatların ümumi siyahılarının hamısında Raufun adı gedir. Əvvəllər də söyləmişdim ki, nə Raufun özü, nə anası, nə vəkili, nə də mən səs-küy salmağa meylli deyilik. Çünki onun həbsinin öz motivləri var. Onun həbsindən sonra, Allah rəhmət eləsin, atası da vəfat etdi. Rauf vəkilindən başqa heç kimlə görüşə bilmir. Görüşəndə deyir ki, səhhətimlə bağlı heç bir xəbəri mətbuata ötürmə, anam həyəcanlanacaq, onun da vəziyyəti pisləşəcək. Bu nöqteyi-nəzərdən o qədər də səs-küy salınmadı. Özünüz görürsünüz ki, çox səs salmağın da önəmi qalmayıb. Xədicə İsmayılın adı hər yerdə birincidir. Amma heç bir əhəmiyyəti yoxdur. Bütün hüquqi mərhələləri normal şəkildə keçəndən sonra, orada da heç nə olmayacaqsa, onda gərək hay-küy salınsın. Rauf hər zaman səs-küy salmaqdan uzaq olub. Mən də beləyəm. Anası da bunu xoşlamır. Nə lazımdırsa, müraciət olunub. Anası dəfələrlə ölkə başçısına, birinci xanıma müraciət edib. Bir məsələ də var. Nə qədər qəribə olsa da, Raufu güdən, həbs edən MTN-in Antiterror Mərkəzinin üzvlərinin hamısı tutulub. Biri hətta intihar da etdi. Bütün bunların müqabilində bəraət vermək çox asan olardı. Bəlkə də bundan sonrakı mərhələlərdə bunları düşünüb, qərar verəcəklər. Hər halda, ümid edək".

**R.Mirqədirovun vəkili Fuad Ağayev hakimiyyətin hüquqlarını müdafiə etdiyi şəxsə qarşı qərəzli olması kimi fikirlərin doğru olmadığını söylədi:** "Fikirləşmirəm ki, iqtidarda kimsə Raufun cəzalandırılmasını istəsin. Ona qarşı verilmiş ittiham MTN-in keçmiş rəhbərliyinin fəaliyyəti kimi ortaya çıxmışdı. Ola bilər ki, nazirliyin fəaliyyətinin səmərəliliyini göstərmək, mübarizə aparırıq, kəşfiyyatımız var kimi, düşüncələr yaratmaq üçün belə addım atıldı. Mirqədirovun yeganə "günahı" ondan ibarətdir ki, Ermənistana gedib və oradakı tədbirlərdə iştirak edib. Əgər bunları günah saymaq mümkündürsə, çoxlu sayda yüksək vəzifəli şəxslərdən Ermənistana gedənlər olub. Hökmdən apelyasiya şikayəti verəcəyik. İstənilən məhkəməmiz dövlət tərəfdən qərar qəbul edir. Ümid edirik ki, Apelyasiya Məhkəməsi Rauf Mirqədirovu azad edəcək".

❑ **Cavanşir ABBASLI**

# Əfv sərəncamının icrası başa çatdı

**Prezident İlham Əliyevin dekabrın 28-də imzaladığı əfv sərəncamı Penitensiar Xidmətin Müalicə Müəssisəsində, 6 və 11 saylı cəzaçəkmə müəssisələrində icra olunub.**

APA-nın məlumatına görə, müalicə müəssisəsindən 3, 6 saylı cəzaçəkmə müəssisəsindən 24, 11 saylı cəzaçəkmə müəssisəsindən isə 3 nəfər azadlığa buraxılıb. 6 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılanlar arasında Suriya və İngiltərə vətəndaşları da olub.

Əfv sərəncamı Şəki Pentensiar Müəssisəsində də icra olunub. Sərəncama əsasən, Şəki Pentensiar Müəssisəsində cəza çəkən 12 məhbus azadlığı buraxılıb. Bu münasibətlə müəssisədə təşkil edilmiş tədbirdə çıxış edən Şəki Pentensiar Müəssisəsinin rəhbəri Murtuz Sadıxov və digər şəxslər əfv edilənləri təbrik ediblər.

Əfv olunanların yaxınları dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Əfv olunanların 3-ü Şəki, 3-ü Mingəçevir, 2-si Yevlax , 1-i Ağdam, 1-i Ağsu, 1-i Balakən və 1-i Oğuz sakinidir.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin bütün müəssisələrində sərəncam icra olunub. Qeyd edək ki, prezident İlham Əliyevin dekabrın 28-də imzaladığı sərəncam ümumilikdə 210 nəfərə şamil edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 198 nəfər cəzanın çəkilməmiş hissəsindən, 3 nəfər islah işləri, 9 nəfər isə cərimə cəzasından azad edilib.

Əfv olunalar arasında xarici ölkə vətəndaşları da var.

# Təzyiqə dirənişin bədəli



**Xalid KAZIMLI**

**Lap son günlərdə şübhələr ümidi üstələmişdi, deyirdik, bu əfv də belə getdi, siyasi məhbuslar bu dəfə də azadlığa buraxılmayacaq. Ayın əvvəlində isə ümidlər çox böyük idi, hətta şübhə heç yoxuydu.**

Media əfv siyahısının hazırlanması barədə yüzlərlə məqalə, yazı hazırlanmışdı. Bu yazıların hamısı sırf siyasi məhbusların xatirinəydi.

Açığı, oğruların, quldurların, hətta bəzi qatillərin azadlığa buraxılıb-buraxılmaması media əhlini çox az maraqlandırır. Əslində onlar kriminal ünsürlərin cəzalarını tam çəkmədən azad edilmələrinə qarşıdırlar.

Bu barədə dəfələrlə yazmışıq, qısaca bir daha təkrar edək ki, cinayət törədərək həbsə düşən, bir müddətdən sonra əfv sərəncamıyla, amnistiya ilə azadlığa buraxılan şəxslər ictimai təhlükəliliklərini saxlayırlar və onların tam əksəriyyəti ilk fürsətdə yenidən cinayət törədir, məhkəmə qarşısına çıxır və dörd divar arasına qayıdırlar.

Ona görə də lap əvvəldən kriminal ünsürlərin siyasi məhbuslarla bir siyahıda əfv olunması düzgün deyil. Canilərin azadlığa buraxılmasını ailə üzvlərindən başqa tələb edən də yoxdur. Heç onlar da hökumət qarşısında tələb qoymurlar, olsa-olsa xahiş edir, yalvarırlar.

Əvəzində siyasi məhbusların azadlığa buraxılmasını BMT-dən tutmuş Avropa Şurasına, demokratik və qüdrətli dövlətlərin siyasi dairələrinə, beynəlxalq və yerli hüquq müdafiə təşkilatlarına qədər hər kəs tələb edir.

Hakimiyyət isə hər dəfə 100 caninin adının yanında siyahıya 4-5 siyasi məhbusun adını yazaraq azad edir, yerdə qalanları "bir sonrakı əfv"ə saxlayır.

Son illərdə siyasi məhbusların az da olsa azadlığa buraxılmadığı əfv sərəncamları olmazdı, artıq o da olur. Son əfv sərəncamında heç bir siyasi məhbusun və ya vicdan məhbusunun adı yoxdur.

Əgər hər şey rəvan getsəydi, azı 20-yə qədər siyasi məhbus bu dəfə əfv olunacaqdı, amma olmadı, bu layihəni amerikalı konqresmen Smit bərbad etdi.

Hər şey hazır idi, əfv olunacaq siyasi məhbusların bir çoxunun ərizəsi alınmışdı, ailələrinə xəbər verilmişdi, adları əfv komissiyasının müzakirəsindən keçmiş, dövlət başçısına göndərilmişdi. Qalırdı bir imza atmaq.

Məhz o imza atılmadı. Amerikalı konqresmen Kristofer Smitin Azərbaycan hakimiyyətinə qarşı hazırladığı sanksiya layihəsinə hökumətin verdiyi sərt reaksiyadan sonra artıq şübhələr yaranmışdı ki, bunun bədəlini siyasi məhbuslar ödəyəcək.

Rəsmi Bakının ABŞ-a qarşı götürdüyü demarşla bərabər əfv sərəncamında siyasi məhbusların adının ola biləcəyinə bəslənən şübhələr qar qalağı kimi artdı, artdı, nəhayət, dekabrın 28-də gerçəklik olaraq meydana çıxdı.

Əvvəllər də belə olaylar olub. Yəni hansısa tələblərin, təzyiqlərin acığına siyasi məhbusların əfv olunmamasının analoqu vardı.

Mövcud iqtidarın xasiyyətidir, qüdrətli siyasi dairələrdən gələn təzyiqə həmişə bu cür reaksiya verir, onlara meydana oxuyur, onların sözlərinin ondan ötrü qara quruşluq dəyərinin olmadığını sübut etməyə çalışır.

Əlbəttə, "qüdrətli siyasi dairələrə meydan oxumaq" deyərkən, bu, Rusiyaya aid deyil. Rəsmi Bakı belə dirənişləri heç zaman Rusiyaya qarşı etmir, onun gücü ABŞ-a, Almaniyaya, İngiltərəyə çatır.

Çünki Rusiya ilə o biri ölkələrin xarici siyasəti arasında fərq böyükdür. ABŞ (və digərləri) qarşılarında dirəniş görəndə problemi zamanla, həm də danışıqlar yolu ilə həll etmək xətti götürürlərsə, Rusiya dərhal ən ağlasığmaz və ən sərt tədbirlər həyata keçirməyi düşünür.

Bu baxımdan əgər siyasi məhbusların əfvini Rusiya tələb etsəydi, reaksiya fərqli ola bilərdi. İntəhası, Rusiya da heç vaxt demokratiya və insan haqları mövzusunda Azərbaycana qarşı hər hansı bir tələb irəli sürməyib. Ümumiyyətlə, bu dövlət bütün dünyada avtoritar rejimlərin daimi dəstəkçisidir.

Beləcə, Azərbaycanda demokratiyanın, haqq-ədalətin bərqərarı üçün həyatlarını, ömürlərinin qızıl illərini verən şəxslər beynəlxalq miqyaslı intriqanın qurbanı oldular.

**P.S.** *Başqa heç kəsi demirəm, təkcə Tofiq Yaqublunu mərhum qızı Nərgiz Yaqublunun doğum günündə azadlığa buraxmaq şansını qaçıran hakimiyyətin humanizmi şübhəlidir.*

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

# "Hökumət çalışacaq ki..."

## Vüqar Bayramov: "Neftin qiyməti gələn il iqtisadi proseslərə diktə edəcək"

**Ekspertlər bildirirlər ki, iqtisadi böhran Azərbaycanda daha çox təmir-tikinti işlərində fasilələrin yaranmasına, infrastruktur layihələrinin dayanmasına səbəb olacaq. Bu baxımdan, növbəti il Azərbaycanda işsizliyin sayının da artacağı söylənilir.**



Bu şəraitdə hökumətin hansı tədbirlərə əl atacağı barədə musavat.com-a açıqlamasında iqtisadçı alim Vüqar Bayramov danışıb. O bildirib ki, 2016-cı il Azərbaycan üçün iqtisadi baxımdan asan olmayacaq: "Bu, həm neftin qiymətinin enməsi ilə bağlıdır, həm də ölkəyə daxil olan valyutaların həcminin azalması səbəbindən, manata təzyiqlərin artması ilə əlaqədardır. Bəllidir ki, neftin qiymətinin aşağı düşməsindən sonra Azərbaycanın neft ixracatından əldə etdiyi gəlir üç dəfə azalıb. Bu, ölkəyə daxil olan valyutanın həcminin üç dəfə azalması deməkdir. 2016-cı ildə hökumətin siyasəti qənaət rejiminə keçmək və qənaət etməkdən ibarətdir. Hökumət çalışacaq ki, 2016-cı ildə qənaət prinsipini davam etdirsin, vəsaitlərə qənaət etsin. Manatın devalvasiyasından öncə də 2016-cı ilin dövlət büdcəsindən sosial istiqamətə ayrılacaq vəsaitlərin həcmində azalmaların olacağı gözlənilirdi. Növbəti ildə sosial istiqamət üzrə 3.7 milyard manat vəsait ayrılacaq ki, bunun 3.6 milyardı birbaşa əmək haqqı xərcləridir. Qalanları isə sosial yardımlarla bağlıdır. 2016-cı ildə hökumətin sosial ayırmaların həyata keçirilməsi ilə bağlı çətinlikləri olmayacaq. Çünki indiki məqamda 3.7 milyard manatın qarşılanmasında hər hansı bir çətinlik olacağı gözlənilmir. Ancaq infrastruktur layihələrində kəskin azalmalar olacaq. Söhbət nəqliyyat və digər uyğun sektorlarda infrastruktur layihələrindən gedir. Çünki hökumət infrastruktur layihələrini dayandırmaqla, çalışacaq ki, sosial öhdəliklərini yerinə yetirə bilsin".

**Ekspert növbəti ildən xidmət sektorunda işsizliyin artacağını da bildirib:** "Neftin qiyməti gələn il iqtisadi proseslərə diktə edəcək. Manatın məzənnəsi üçün də neftin qiyməti həlledici rol oynayacaq. Eyni zamanda manatın son devalvasiyası alıcılıq qabiliyyətinə də təsir göstərib. 2016-cı ildə bu, artıq xidmət sektoruna da təsir göstərəcək. 2015-ci ildə ölkədə 30 min iş yeri bağlanmışdı ki, bunların da bir qismi xidmət sektoruna aid idi. Növbəti ildə də alıcılıq qabiliyyətinin aşağı düşməsi səbəbindən xidmət sektorunda bir sıra iş yerlərinin bağlanacağı proqnozlaşdırılır. Qısası, onu deyə bilərik ki, böhran növbəti ildə Azərbaycanda infrastruktur layihələrinə və xidmət sektoruna daha çox təsir edəcək".

**V.Bayramov növbəti ildə Bakının mərkəzində "Sovetski" kimi tanınan ərazidə hansı işlərin planlaşdırılmasından da danışıb:**

""Sovetski" kimi tanınan ərazidə sosial obyektlərin salınması mümkündür. Ora əsasən investorların cəlb edilməsi nəzərdə tutulur. Öncədən də yanaşma ondan ibarətdir ki, həmin ərazi xarici investorlar cəlb edilməklə, uzunmüddətli icarəyə verilsin. Bu baxımdan indiki halda həmin istiqamət üzrə büdcədən iri həcmli ayırmaların həyata keçirilməsi mümkün deyil. "Sovetski" və digər söküntü gedən yerlərdə məqsədəuyğun yol, xarici investorlar hesabına həmin ərazilərin yenidən qurulmasını həyata keçirmək və uzunmüddətli dövr üçün icarəyə verməkdir".

❑ **Əli RAİS**




## Bütün "exhange"lər bağlanır

**Azərbaycandakı bütün valyutadəyişmə məntəqələri bağlanacaq. Bu barədə virtualaz.org saytına hökumətə yaxın mənbələrdən məlumat verilib. İnformasiyaya görə, bununla bağlı müvafiq qərar ən yaxın zamanlarda qəbul edilə bilər. Məlumatı verən mənbə valyutadəyişmə məntəqələrinin bağlanması zərurətini onunla izah edib ki, bu məntəqələrin işçiləri birbaşa banklar tərəfindən müəyyən edilmiş vəzifələrini yerinə yetirmək əvəzinə nəinki təkcə Mərkəzi Bankın, bütövlükdə dövlətin siyasətinə ziyan vuran fəaliyyətlə məşğul olurlar. Belə ki, məhz valyuta mübadiləsi şöbələri əməkdaşlarının "fəaliyyəti" sayəsində möhtəkirlik halları artır, əhali arasında qeyri-sağlam ajiotaj yaranır.**

Məlumata görə, əhali bundan sonra pulunu "exhance"lərdə yox, bankların özündə və bank filiallarında dəyişə bilər. Bu isə Mərkəzi Banka öz pul siyasətini daha dəqiq yürütməyə və məzənnə ilə bağlı bütün prosesləri nəzarətdə saxlamağa imkan verəcək. Bu qərar həmçinin hələ 90-cı illərdən formalaşan "qara bazar"ın təsirini də heçə endirəcək.

Qeyd edək ki, valyutadəyişmə məntəqələrinin bağlanacağı xəbərini ilk olaraq musavat.com saytı yazmışdı. Dekabrın 21-də yaydığımız xəbərdə (http://musavat.com/news/olke/bakida-valyuta-deyishme-menteqelerinin-sayi-keskin-azaldilir_313365.html) deyilirdi ki, dekabrın 22-dən Bakıda valyutadəyişmə məntəqələrinin sayı kəskin azaldılacaq. Valyutadəyişmə məntəqələrinə və banklara həmin gün xəbərdarlıq edilmişdi. Mərkəzi Bankdan bildirilmişdi ki, sabahdan məntəqələrin sayının tədricən azaldılmasına başlanılacaq və ilin sonunadək Bakıda xırda valyutadəyişmə məntəqəsi qalmayacaq.



YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

**2015-ci il tarixə qovuşur. Bu il istər Azərbaycanın daxilində, istərsə də onun ətrafında yaşanan bir sıra taleyüklü, eyni zamanda kifayət qədər ziddiyyətli və təhlükəli olaylarla yadda qaldı. Yaşanan irili-xırdalı bu olayların hamısı Azərbaycan ictimai rəyində, ictimai-siyasi proseslərin axarında özünəməxsus izlər buraxdı.**




# İlin ən mühüm top-10 hadisəsi - nələr oldu, nələr yaşadıq...

## 2015 Azərbaycan üçün ziddiyyətli və faciəvi olaylarla zəngin oldu; dövlət və cəmiyyət yeni sərt sınaqlardan keçdi; "Neft cənnəti" nağılları bitdi; ölkəyə yönəlik köhnə-yeni təhdidlər 2016-ya adlayır...

Azərbaycana İŞİD terroru təhlükəsi, Rusiya və Qərb arasında hakimiyyətin yayınmağa çalışdığı strateji seçim məsələsi ötən il də öz aktuallığını saxladı və Ankara-Moskva münasibətlərində yaranan böhranla əlavə mürəkkəblik qazandı, ölkə üçün strateji seçim yükü daha da ağırlaşmış oldu.

2015-ci ildə həmçinin milli valyutamız olan manat uzun illərin sabitlik zolağından çıxaraq, ABŞ dolları qarşısında ciddi dəyər itkisinə məruz qaldı, kəskin ucuzlaşdı. Lakin qeyd eləməyə dəyər ki, bölgədə və dünyada baş vermiş iqtisadi-sosial, siyasi xarakterli təlatümlərə, regionda və dünyada artan terror risklərinə rəğmən, 2015-ci il ümumən Azərbaycan üçün sakit, stabil axarda keçdi, ciddi daxili kataklizmlər qeydə alınmadı. Hərgah, bu il xalqımız daha çox sayda faciəvi hadisələr yaşadı, sıxıntı-şok keçirdi.

Erməni işğalı altında olan ərazilərimizin bir qarışı belə azad edilməsə də, hər halda, ölkə və xalq üçün ilin təsəllverici əsas yekunu sabitliyin qorunub saxlanması sayıla bilər. Hərçənd yaşanan olayların bəzilərinin siyasi-iqtisadi əks-sədası böyük ehtimalla, 2016-cı ildə eşidiləcək.

İlin ən əhəmiyyətli hadisələri sırasında elələri oldu ki, onları hakimiyyətin, ümumən cəmiyyətin və ölkənin nəfinə yazmaq olar. Amma aralarında elələri də var ki, hakimiyyətlə bahəm, bütövlükdə dövlətin nüfuzuna xələl gətirdi, hakim qüvvənin nüfuzuna zərbə vurdu. Hərtərəfli analizdən sonra biz seçimimizi ilin 10 ən mühüm hadisəsi üzərində saxladıq. Onları xronoloji ardıcıllıqla diqqətə çatdırırıq:

**Manatın ilk kəskin devalvasiyası**

İl başlar-başlamaz, fevralın 21-də ölkə əhalisi manatın qəfil və birdən-birə 33%-lik ucuzlaşmasının şokunu yaşadı. Xalq ilk dəfə olaraq, neftlə bağlı "Holland sindromu"nu öz üzərində hiss etməyə başladı - xüsusən də aşağı və orta təbəqə. Bütövlükdə isə cəmiyyət 21 fevral olayını "Neft cənnəti" haqda nağılların bitməsi kimi qəbul elədi.

Ən önəmlisi, bu hadisə manatın deyildiyi qədər dönərli olmadığını, iqtisadiyyatımızın güclü əsaslar üzərində qurulmadığını, təcili və dərin iqtisadi islahatlara başlamağın zamanının çatdığını ortaya qoydu. Əfsus ki, yeni imperativ "yuxarılar"da yetərincə ciddiyə alınmadı.

**16 mərtəbəli yaşayış binasında yanğın**

Mayın 19-da isə ölkə əhalisi Bakının Binəqədi rayonunda 16 mərtəbəli yaşayış binasının alışıb yanmasının şokunu yaşadı. Binanın penoplast adlanan üzlüyünün naməlum səbəbdən alışması nəticəsində 5-i körpə olmaqla, 16 günahsız insan həyatını itirdi, onlarla sakin xəsarət aldı.

Hadisəyə görə həbslər aparılsa da istintaq ictimai gözləntilərə rəğmən, indiyədək yekunlaşmayıb, faciənin səbəbləri və günahkarları elan olunmayıb. Bu da bir daha bənzər faciələrin yaşanmayacağına olan ümidi azaldır, cəmiyyətdə haqlı narahatlıq yaradır.

Xilasetmə işlərinin yüksək səviyyədə olmasına baxmayaraq, bütün hallarda dəhşətli yanğın və onun nəticələri cəmiyyəti silkələdi, onun ölkədəki mövcud idarəçilik sisteminə inamını daha da sarsıtdı. Ölkədəki korrupsiya-rüşvət sisteminin, hüquqi dərəbəyliyin, təsərrüfatsızlığın cəmiyyət həyatının bütün sahələrində nə dərəcədə təhlükə mənbəyi olduğunun üzə çıxardı.

**I Avropa Oyunları**

12-28 iyun 2015-ci il tarixdə Bakıda ilk dəfə olaraq və yüksək təşkilatçılıqla I Avropa Oyunları keçirildi. Ermənilərin də bu idman tədbirində iştirakının təmin olunması Azərbaycanın idman və beynəlxalq imicinə işlədi, haqqımızda müasir, tolerant dövlət və tolerant xalq rəyini möhkəmlətdi.

Gözlənildiyi kimi, Avropa Oyunları beynəlxalq diqqəti həm də Azərbaycanda təməl insan haqlarının durumuna yönəltdi. Bundan dolayı rəsmi Bakı ilə Qərb və onun mötəbər strukturları arasında xoşagəlməz gərginlik yarandı, Avropa Birliyi ölkələri oyunların açılış mərasimini faktiki, boykot elədi.

Ümumilikdə bu idman olayı Azərbaycanın bir dövlət olaraq mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməyə layiq dövlət olması rəyini möhkəmlətdi. Sərt tənqidlərə rəğmən, ölkə və onun xalqı haqqında dünyadakı rəy müsbətə doğru gücləndi.

**Parlament seçkiləri - itirilmiş daha bir şans**

1 noyabr 2015-ci ildə ölkədə növbəti parlament seçkiləri keçirildi. Ancaq elektoratın azad və ədalətli seçkilərə total inamsızlığı nəticəsində bu seçkilər də ölkənin, toplumun tarixində, insanların həyatında mühüm siyasi hadisəyə çevrilmədi. Seçkilərdə ən aşağı seçici fəallığı buna sübut idi.

Bu üzdən seçkilər təbii ki, cəmiyyətdə konsolidasiya meyllərinin güclənməsinə və plüralistik cəmiyyətin inkişafına yeni hər hansı təkan verə bilmədi. 10 noyabr parlament seçkiləri xalqın iradəsini ifadə eləməməklə yanaşı, ölkədə legitim hakimiyyət strukturlarının, o sırada legitim qanunverici orqanın formalaşdırılması yönündə itirilmiş növbəti şans kimi tarixə düşdü.

ATƏT və AŞ PA ilk dəfə olaraq Azərbaycanda belə böyük seçkini - parlament seçkilərini izləmək üçün müşahidəçi göndərmədi, seçkiləri, faktiki, boykot elədi. Yeni parlament isə əvvəlki kimi siyasi müxalifətsiz formalaşdı. Bununla da gələcək siyasi polemikaları küçələrdən parlament divarları arasına keçirmək şansı əldən buraxıldı.

**İki nazirin qovulması, generalların qalmaqallı həbsi, MTN-in ləğvi...**

Yekunlaşmaqda olan il habelə, üç güc strukturundan biri və birincisi olan MTN-də hay-küylü işdən qovulmalar və şok effektli həbslərlə yadda qaldı. Öncə nazir Eldar Mahmudov işdən çıxarıldı. Az sonra başlanan istintaqın gedişində həbslər dalğası digər nazirliklərə və idarələrə keçdi, rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov da vəzifəsi ilə vidalaşmalı oldu.

Keçmiş MTN-in yüksək çinli zabitləri, generalları da daxil, onlarla əməkdaşı həbsə atıldı. İşlə bağlı həbs edilənlər arasında Beynəlxalq Bankın sabiq rəhbəri, Eldar Mahmudovun qudası Cahangir Hacıyev və başqa yüksək çinli şəxslər də var. Azərbaycanın 24 illik müstəqillik tarixində bu, ilk hay-küylü hadisədir ki, birdən-birə bu qədər sayda yüksək çinli əməkdaş, general - olduqca böyük və qorxulu bir cinayətkar şəbəkənin üzvləri həbsə salınır.

Motiv tükürpədici idi: dövlətin və millətin təhlükəsizliyi ilə məşğul olmalı olan qurum - MTN dövlətə ən böyük təhlükə mənbəyi imiş. MTN haqlı olaraq ləğv edildi və onun yerinə iki qurum - Dövlət Təhlükəsizlik Xidməti (DTX) və Xarici Kəşfiyyat Xidməti (XKX) yaradıldı. Ancaq MTN olayları ölkənin imicini də zədələdi - Azərbaycanda korrupsiyanın, qanunsuzluğun dövlət aparatında dərin kök salması, cəzasızlıq mühitinin güclü, ictimai şəffaflığın isə zəif olması haqda beynəlxalq rəy gücləndi.

"MNT işi" hələ yekunlaşmayıb. Onun real nəticələri və bu nəticələrin miqyasını, ölkə ictimai-siyasi həyatına vəd elədiyi təsirləri yəqin ki, gələn il biləcəyik. "MTN işi"nin yetərincə qalmaqallı proses olacağını isə nazirliyin antiterror idarəsinin rəisi İlqar Əliyevin təcridxanada müəmmalı intiharından da görmək olar...

**Qanlı Nardaran hadisələri**

Noyabrın 26-sı da 2015-ci ilin yaddaşına ən faciəvi olaylardan biri kimi düşdü. İkisi polis əməkdaşı olmaqla, 6 nəfərin ölümü ilə nəticələnən qanlı Nardaran hadisəsi ilin ən faciəvi hadisələrindən biri kimi yaddaşlarda qaldı.

Baş verənlərin motivinə münasibətdə fərqli fikirlər və rəylər olsa da, hadisələrdə "İran barmağı" izlənsə də, güc strukturlarının peşəkarlıq problemi vurğulansa da, toplumun əksəriyyəti hadisələrdə dövlətin və dövlətçiliyin yanında durdu, hökumətin dövlətçiliyin bərqərar edilməsinə, onun dayaqlarının sarsılmasını önləməyə yönəlik addımlarını anlayışla qarşıladı.

Lakin Nardaran hadisəsi bu cür olayların bir daha təkrarlanmaması üçün dövlətin və onun aidiyyəti qurumlarının, həmçinin dini təsisatların və cəmiyyətin üzərinə yeni öhdəliklər də qoydu. İslam dininin sağlam təbliği probleminin zəruriliyini gündəmə gətirdi.

**"Günəşli" yatağının platformasında yanğın**

4 dekabr 2015-ci ildə Xəzər dənizindəki "Günəşli" neft-qaz yatağının 10 saylı platformasında baş vermiş yanğın nəticəsində 8 neftçi həlak oldu, 22-si isə hələ də itkin düşmüş sayılır. Hərçənd onların sağ qalmasına inam artıq tükənib.

Azərbaycanın müasir neft-qaz sənayesi tarixində baş verən bu ilk böyük faciə cəmiyyəti daha çox sarsıtdı. Ölkədə uzun illərdən sonra ilk dəfə matəm elan edildi.

**Manatın 2-ci devalvasiyası, "üzən məzənnə", ilin ən zəif valyutası**

Neftin kəskin şəkildə ucuzlaşması dekabrın 21-də manatın növbəti kəskin devalvasiyasına səbəb oldu. Bu dəfə o, daha 48% ABŞ dolları qarşısında dəyər itirərək 1 ABŞ dolları - 1.55 manat nisbətində qərarlaşdı. Mərkəzi Bank ilk dəfə manatın kursunun "üzən məzənə"yə keçdiyini elan elədi. Ölkədə Yeni il ərəfəsi mal və xidmətlər kəskin şəkildə bahalaşdı.

Əcnəbi iqtisadi ekspertlər manatı postsovet məkanında bu il ən çox dəyər itirən (98%), ən zəif valyuta kimi qiymətləndirdilər. Bir daha qənaət hasil oldu ki, Azərbaycanda qeyri-neft sektoru bəyan edildiyinin əksinə olaraq inkişaf etdirilməyib, iqtisadiyyat, manat neft dollarından güclü şəkildə asılı qalmaqda davam edir.

Bu hadisə ölkədə həqiqi islahatçı komandanın iş başına gəlməsinin vacibliyini bütün ciddiliyi və çılpaqlığı ilə ortaya qoydu. Əfsus ki, hakimiyyətin 2-ci devalvasiyaya reaksiyası əvvəlkindən fərqlənmədi. Demək, manatın daha ağır duruma düşəcəyi istisna edilmir.

**İki tanınmış siyasi məhbus azadlıqda**

Leyla və Arif Yunusların ev dustaqlığına buraxılması da ilin yadda qalan olaylarından hesab oluna bilər. Əfsus ki, il sonu prezident İlham Əliyevin imzaladığı əfv fərmanı ilə bunun davamı gəlmədi. Qərbin, beynəlxalq insan haqları təşkilatlarının həllini gözlədiyi siyasi dustaq problemi aradan götürülmədi. Üstəlik, problem təzə siyasi həbslərlə və daha kəskin şəkildə yeni ilə adladı. Böyük ehtimalla, bu məsələ 2016-cı ildə Bakı-Qərb münasibətlərinin xarakterini müəyyən edəcək bir-iki amildən biri olacaq.

**"Anti-Amerika kampaniyası" və qarşılıqlı sanksiya hədələri**

Yeri gəlmişkən, Bakı-Qərb münasibətlərində irili-xırdalı kolliziyalar, söz savaşı və qarşılıqlı sanksiya hədələri bu il də davam etdi. Baş verənlərdə obyektiv amillərlə yanaşı, beynəlxalq erməni lobbisinin ölkəmizə qarşı təxribatçı barmağı da aydın göründü.

Bununla belə, yaşanan gərginlik ölkənin xarici strateji siyasət oriyentirlərinin dəyişməsinə və rəsmi Bakının balansı ciddi şəkildə Rusiyanın xeyrinə pozmasına gətirmədi. Gərgin ritorika 2016-ya keçir...

**P.S.** *Azərbaycan və Ermənistan prezidentləri arasında dekabrın 19-da reallaşan Bern görüşü, Azərbaycana bir çox istiqamət üzrə mühüm təsirlər vəd edən Türkiyə-Rusiya münasibətlərinin kəskinləşməsi də ilin mühüm hadisələri sırasına aid edilə bilər.*

❑ **Analitik xidmət**

# "Cokonda"nın tarladakı iflası



Zamin HACI
zaminhaci@gmail.com

**Qədim hind məsəli kimi yadımda qalan bir aforizm var: "Qüdrətli padşah əlindəki gücdən insanlara qarşı zorakılıq üçün yararlanan padşah deyil, qüdrətli padşah zor imkanı olan, ancaq bunu etməyəndir". Mən bu məsəli iki gün qabaqkı əfv fərmanı olanda bir daha xatırladım. Əslində ona əfv yox, humanizmə karikatura aksiyası demək daha düzgün olardı.**

Amerikanın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariçin bu münasibətlə verdiyi təəssüf dolu intervüdə bir cümlə diqqəti çəkdi: "Azərbaycanın mübarizə apardığı dərin iqtisadi böhran xarici investisiyaların yatırılmasını tələb edir, ona görə də məntiqli olardı ki, Azərbaycan ABŞ və Avropadan üz döndərməsin, əksinə, onları özünə daha çox cəlb etsin". Ancaq əlbəttə, söhbət məntiqli hakimiyyətdən gedir. Bizdə isə məntiqin izi-tozu yoxdur. Ölkədə dollar böhranı yaşanır, bunlar isə dolların yiyəsi ilə dava eləmək kimi gülünc fikrə düşüblər.

Əlbəttə, bu davada müttəfiqə - Rusiyaya arxayındırlar.

Bu yaxında deputatxana Artur müəllimin qoluna girib birlikdə sınıq-salxaq 2016-cı il dövlət büdcəsini qayırdı. Orda biabırçı, 2015-ci ilə nisbətdə bir neçə milyardlıq azalmalar vardı. Gəlirlər 14 milyard yarım manat, xərclər isə 16 milyard 200 milyon nəzərdə tutulub. Bunu manata çevirəndə isə lap karikatur rəqəm alınır. Oxucular qorxmasın, mən yapist iqtidar deyiləm, xalqa rəqəm yedizdirmək fikrim yoxdur, mən söz yazıram. Sadəcə, bu rəqəmi müqayisə üçün yazdım. Almaniya ilə müqayisə üçün. Dünən Almaniya hökuməti sığınacaq verdiyi 1 milyona yaxın müsəlman-şərqli qaçqına 2016-cı ildə edəcəyi yardımın miqdarını açıqlayıb: 16 milyard 500 milyon avro! Manata çevirəndə Azərbaycan büdcəsindən 2 dəfə çox! Yapistlər isə belə bir dövlətə savaş elan etmişdilər.

Belə bir hökumətimiz olduğuna görə də biz uzun illərdir öz ölkəmizdə qaçqın kimi yaşayırıq. Heç bir insan hüququ, sağlamlıq, azadlıq qarantiyalarımız yoxdur. Kasıb, tək çaxır və mineral su ilə dünyada özünü tanıda bilən Gürcüstan tibbi sığorta qanununu qəbul edib, hər bir insanın ildə 9 min dollara qədər tibbi xərclərini dövlət ödəyir. Bizim isə nəinki çörəyimizin duzu, çörəyimiz özü də yoxdur. Uzun illər millətin beynini Calal Əliyevin "Qaramuncuq", "Qanqalotu" tipli gülməşəkər adlar daşıyan buğda sortları ilə xarab elədilər. Yadımdadır, dövlət qəzetində hətta Cəlal əminin rayonda taxıl sahəsində, əlində ... "Mona Liza" portretli reportajı verilmişdi. Müxbir tam ciddi şəkildə belə yazmışdı: "Leonardo da Vinçi "Cokonda"nı hansı məhəbbətlə yaradıbsa, Cəlal Əliyev də "Qaraqılçıq-1" sortunu elə bir sevgiylə düzəldibdir". İndi isə utanmadan, həyasızcasına bəyan edirlər: "Azərbaycanda istehsal edilən buğda mal-heyvan yeminə yarayır, ölkəmiz özünün insan buğdasına, çörəyə tələbatının yalnız 20 faizini ödəyir, o üzdən məcburuq dollar bahalaşan kimi çörək də bahalaşsın".

Bəs nə oldu o təbəssüm? Bəlkə Cəlal müəllimin Saatlıda tarla qırağında əlində tutduğu həmin "Cokonda" elə bizim xalqın avamlığına gülürmüş?

Valyutadəyişmə məntəqələrini, dolayısı ilə dolların kursunu iqtisadi mexanizmlərlə tənzimləyə bilməyib inzibati üsula əl atmaqları, "eksçeync"ləri bağlamaq anonsu da həmin məntiqsiz, hikkəli, avam siyasətdən doğur. Bunlar kommunistlərin varisləridir, gördükləri iş SSRİ-ni təkrardan başqa nə ola bilər? Axı SSRİ-də də valyutadəyişmə məntəqələri yox idi. Onun da sərhədləri dəmir pərdə ilə bağlanmışdı, Almaniya və Amerika ilə savaş aparmaq istəyirdi.

Bir fərq vardı ki, SSRİ-də ASAN-xidmət yox idi. Bəlkə valyuta alveri də ASAN-xidmətə verilsin? Nəsə son günlər bu "uğurlu kəşf" az reklam edilir. Elə bil özləri də başa düşür ki, neft pulları azalan dövrdə administrativ aparatın caynaqlarını xalqın bədəninə salıb təzədən pul yığmaqdan başqa yolları qalmır. Məndən demək: yenə arayışları pulla, uzun müddətə alacaqsınız.

# Amerikadan iqtidarımıza əfv etirazı

# Azərbaycana qarşı daha bir sanksiya layihəsi - bank hesablarına həbs...

## Kristofer Smitin sənədindən də kəskin sənəd layihəsi ABŞ Konqresinə göndərilib; yanvarda hakimiyyəti və ölkəmizi iki sərt sınaq və hətta sürpriz gözləyir; AŞ PA-da antierməni qətnamələrin qəbulu əngəllənə bilər...





**İl sonu əfv gözləntiləri özünü yenə doğrultmadı. Siyasi məhbus hesab edilən şəxslərin hamısı zindanda qaldı. Bunun sonuq küləyi yəqin ki, ən çox Azərbaycanı və onun maraqlarını, paralel olaraq təbii ki, hakimiyyəti tutacaq. Həm də o səbəbə ki, dekabr əfvi Azərbaycan ətrafında olduqca həssas beynəlxalq situasiyaya təsadüf edirdi.**

Söhbət ilk növbədə ölkədə təməl insan haqları ilə bağlı narahatlıqlardan gedir. Bu xüsusda ölkəmizlə bağlı azı iki neqativ perspektiv var və onların reallaşma ehtimalı təəssüflər olsun ki, artıb. Onlardan biri ABŞ Konqresinin respublikaçı üzvü, Helsinki Komissiyasının sədri Kristofer Smitin Azərbaycanla bağlı parlamentə təklif elədiyi "Qanunun aliliyi və insan haqları naminə Azərbaycan demokratiya aktı" adlı məlum qanun layihəsi ilə bağlıdır.

Xatırladaq ki, sənəd Azərbaycan hökumətinin yüksək çinli rəsmilərinə ABŞ-a səfər vizalarının verilməsindən imtina, habelə, həm onlara, həm də hakimiyyətin təhlükəsizlik və ədliyyə qollarına daxil olan vəzifəli şəxslərə qarşı maliyyə cərimələrinin tətbiqini nəzərdə tutur.

**Bununla bağlı Smit demişdi:** "Biz ölkələrimiz arasında mühüm milli təhlükəsizlik və iqtisadi bağların mövcud olduğunu başa düşürük, lakin ABŞ Azərbaycanda baş verən dəhşətli insan haqları pozuntularına bundan sonra da göz yuma bilməz. Birləşmiş Ştatlar siyasi müxalifəti və medianı repressiya edən hökumətə heç bir şəkildə güzəşt etməyəcək".

**Lakin qanun layihəsinin qəbul olunmaması üçün orada şərt - qapı da qoyulub:** "Sanksiyalar yalnız Azərbaycan hökuməti siyasi məhbusların azad edilməsində, vətəndaş cəmiyyətinin sıxışdırılmasına son qoyulmasında, habelə azad və ədalətli seçkilərin keçirilməsində ciddi tərəqqi etdiyi halda qaldırıla bilər".

***

Göründüyü kimi, sadalanan sahələrin heç biri üzrə irəliləyiş gözə dəymir. Son əfv fərmanı da situasiyanın yumşaltmasına gətirmədi. Bu üzdən Smitin təklifinin yanvar ayında Konqresdə və onun komitələrində qəbulu ehtimalı xeyli artmış sayıla bilər. Bu harasıdır, bəlli olub ki, Azərbaycanla bağlı Konqresdə başqa, daha sərt sənədin qəbulu da mümkündür.

**"Turan" informasiya agentliyinə müsahibəsində ABŞ-ın Bakıdakı keçmiş səfiri Riçard Kozlariç bu mövzuda danışarkən bildirib:** "Azərbaycanda imzalanmış sonuncu əfv fərmanı vəziyyəti yaxşıya doğru dəyişmək üçün itirilmiş imkandır. Bu - mənim uzun müddətdir dediklərimi təkrarlayır - Bakıdakı repressiv rejim Qərblə yaxınlaşmanı özünə təhdid kimi görür. Mən Azərbaycan hakimiyyətinin nə fikirləşdiyini bilmirəm, ancaq belə görünür ki, onlar Qərblə yaxşı münasibətlərdə maraqlı olmadıqlarını göstərmək istəyirlər. Bu, onların seçimidir... Hakimiyyət siyasi məhbusları buraxmalı idi, ancaq onlar bunu etmədilər".

**Sabiq səfir Azərbaycan hökumətinin Vaşinqtonla əməkdaşlıqdan imtina etdiyini də söyləyib. Onun sözlərinə görə, başa çatmaqda olan il ərzində ABŞ Azərbaycan hökuməti ilə pozitiv əməkdaşlıqda çox maraqlı olub:** "Bunu Bakıya yüksək vəzifəli rəsmilərin, məsələn, dövlət katibinin köməkçisi Viktoriya Nulandın, müdafiə nazirinin köməkçisinin səfəri də təsdiq edir. Onlar Bakıdakı hakimiyyətə çox pozitiv mesajlar verdilər, ancaq bu da işə yaramadı".

**Eks-səfirin fikrincə, belə vəziyyətdə Azərbaycana qarşı sanksiyalara dair çağırışların olmaması məntiqli görünməzdi:** "Və ya Avropa Şurasının baş katibi Torbyörn Yaqland Azərbaycanda insan haqlarının vəziyyətini araşdırmaq üçün xüsusi nümayəndə təyin etməzdi. Azərbaycan hökumətinin il ərzində ABŞ-a qarşı atdığı addımları, habelə qanunvericiliyin və KİV-lərə təzyiqlərin sərtləşməsini nəzərə alaraq hesab etmirəm ki, hakimiyyət siyasi məhbuslar probleminin həllində maraqlıdır. Bu, çox kədərlidir. Mən və David Kremer deyirdik ki, nəsə etmək lazımdır. Əgər onlar siyasi məhbusları azad etmirsə, daha təsirli tədbirlər görmək lazımdır, ən azından günahsız insanların həbsdə oturmasına görə məsuliyyət daşıyan konkret məmurlara qarşı. Bunun alternativi sadəcə olaraq yoxdur".

**Kozlariç həmçinin Kristofer Smitin Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsini şərh edib. Bildirib ki, hazırda bu qanun layihəsinə dair sonrakı addımın nədən ibarət olacağı aydın deyil.** "Fikrimcə, Yeni il tətili günlərindən sonra Konqres bu diskussiyalara qayıdacaq və onun dəstəklənməsi növbəti addım olacaq. Senator Benjamin Kardin tərəfindən təqdim edilmiş digər qanun layihəsi - "Qlobal Maqnitski Aktı" da bunu deməyə əsas verir. Bu sənədin əhatə dairəsi əslində Smitin layihəsindən də genişdir və siyasi məhbusların, korrupsiyanın olduğu ölkələrdə konkret şəxslərə qarşı maliyyə sanksiyalarını *(hesabların bağlanması -red.)* nəzərdə tutur. Ona görə də mən çox təəccüblənirəm ki, Bakıda Kardinin layihəsinə yox, Smitin qanun layihəsinə bu qədər çox diqqət ayırırlar" - keçmiş səfir əlavə edib deyib.

***

Yanvarda Azərbaycanla bağlı ikinci təhlükəli gozlənti Strasburqla əlaqəlidir. Xəbər verdiyimiz kimi, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında Azərbaycanın maraqlarını əks etdirən iki mühüm sənəd səsverməyə çıxarılacaq. Onlardan biri Dağlıq Qarabağla, digəri isə ermənilərin nəzarətindəki Sərsəng su anbarı ilə bağlıdır. Artıq qurumun müvafiq komitələrində *(Siyasi və Sosial komitələr)* təsdiqlənən hər iki qətnamə layihəsində Ermənistan birmənalı şəkildə işğalçı dövlət kimi göstərilir, Dağlıq Qarabağ və ətrafındakı 7 rayonun işğal altında saxlandığı xüsusi vurğulanır.

Ötən yazılarımızda vurğulamışdıq ki, bu fakt Ermənistanın siyasi, hakimiyyət və ekspert dairələrində ciddi təlaş və məyusluq doğurub, "diplomatik fiasko" adlandırılıb. O üzdən prezident Serj Sərkisyanın tapşırığı əsasında AŞ PA-da Azərbaycanın xeyrinə olan qətnamələrin qəbulunu əngəlləmək, yaxud onun məzmununu yumşaltmaq üçün ölkəmizə qarşı diplomatik həmlə barədə, bütün mümkün və qeyri-mümkün vasitələrdən istifadə barədə müvafiq göstəriş verilib.

Azərbaycanda siyasi məhbus hesab edilən şəxslərin həbsdə saxlanması sözsüz ki, ermənilərin və onların havadarlarının bu məsələdə ölkəmiz əleyhinə arqumentlərini gücləndirmiş olacaq. Adekvat şəkildə Azərbaycan nümayəndə heyəti üzvlərinin kontur-arqumentlərinin kəsərini azaldacaq. Problem bundadır. Yeni il öncəsi verilən əfv fərmanı, siyasi dustaq probleminin 2016-cı ilə keçirilməməsi düşmən və onun arxasındakı məkrli dairələrin əlindən əsas təbliğat silahını ala bilərdi. Əfsus, bu, olmadı.

❑ **Analitik xidmət**

# Beynəlxalq Qarabağ Koalisiyası yaradılıb





## Bakıda keçirilən təsis konfransına 60-a yaxın təşkilat toplaşıb

**Azərbaycan, Türkiyə və Gürcüstandan olan bir qrup qeyri-hökumət təşkilatı dekabrın 29-da Bakıda İşğala və qondarma erməni "soyqırımı" iddialarına qarşı Beynəlxalq Qarabağ Koalisiyasının təsis konfransını keçiriblər.**

Qarabağ Azadlıq Təşkilatının (QAT), Əsassız Erməni İddiaları ilə Mücadilə Dərnəyinin, Gürcüstan Azərbaycanlılarının Milli Konqresinin və digər təşkilatların birgə təşəbbüsü ilə keçirilən tədbirdə 60-a yaxın qurum iştirak edib.

**QAT sədri Akif Nağı** çıxışında bildirib ki, Dağlıq Qarabağla bağlı koalisiyanın yaradılması çox mühüm və çoxdan edilməli olan addımdır: "Bu məsələdə təşkilatlar ayrı-ayrı fəaliyyət göstərirdilər. Türkiyədə, Gürcüstanda, Azərbaycanda, o cümlədən digər ölkələrdə fəaliyyət göstərən, Azərbaycan işinə, Türkiyə işinə, türk dünyasının işinə xidmət edən təşkilatların bir araya gəlməsi vacibdir. Onların fəaliyyətinin koordinasiya edilməsinə ehtiyac var. Biz bunu etməyə çalışırıq. Hədəflərimiz də məlumdur. Hədəflərimiz ondan ibarətdir ki, Qarabağ həqiqətləri dünyaya çatdırılsın, qondarma erməni soyqırımı ilə bağlı iddialar ifşa olunsun, regionda olan münaqişələr, o cümlədən Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya, həmçinin terror problemi ilə bağlı işlər görülsün. Dövlətlər öz işlərini görürlər. Bizim də öz işimiz var və bunu etməliyik. Ən vacibi odur ki, bu işləri koordinasiya edilmiş şəkildə görək. Məqsədimiz bundan ibarətdir".

**A.Nağı qeyd edib ki, koalisiyanın yaradılmasında əsas məqsəd Dağlıq Qarabağla bağlı həqiqətləri bütün dünyaya çatdırmaqdır. Onun sözlərinə görə, koalisiya öz fəaliyyətində Qarabağ münaqişəsi ilə yanaşı, türk dünyasının üzləşdiyi problemlərin həlli məsələsini önə çəkəcək:** "Biz eyni zamanda "erməni soyqırımı" iddialarını ifşa etməyi qarşıya məqsəd qoymuşuq. Digər məqsəd isə türklərə qarşı terror hadisələrinin aradan qaldırılmasına xidmət göstərməkdir. Artıq vaxt çatıb ki, haqqı deyən təşkilatlar ayrılıqda deyil, bir yerdə mübarizə aparsınlar".

**ASİMDER başqanı Göksel Gülbəy isə türklərin Qarabağ məsələsində olduğu kimi beynəlxalq güclər tərəfindən bir çox məsələlərdə əzildiyini, hüquqlarının tapdandığını vurğulayıb:** "Bundan sonra biz bu mövzuya həssas yanaşmalı və türklərin hüquqlarını bərpa etməliyik. Təsadüfi deyil ki, hazırda erməni lobbisi bizi dünya mediasında sıxışdırır. Biz birlikdə hərəkət etməli, ölkələrimizin gələcəyi üçün bu işə zaman ayırmalıyıq".

**Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Elman Paşayev koalisiyanın yaradılmasını çox mühüm addım kimi qiymətləndirib:** "Qarabağla bağlı problemin kökündə ermənilərin əsassız iddiaları dayanır və təəssüf ki, bu iddialar bu gün də davam edir. Bu baxımdan hesab edirəm ki, koalisiya əsassız erməni iddialarının ifşası istiqamətində mühüm fəaliyyət göstərəcək".

Digər çıxış edənlər də bildiriblər ki, Azərbaycana qarşı Ermənistan tərəfindən hərbi təcavüzün törədilməsi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin, ətraf yeddi rayonun və digər ərazilərinin Ermənistan tərəfindən zəbt edilməsi və hələ də işğal altında saxlanılması, beynəlxalq təşkilatların işğalın nəticələrinin aradan qaldırılması və Ermənistanın cəzalandırılması üçün təsirli addımlar atmaması narahatedici problemdir. Bildirilib ki, Ermənistanın Türkiyə və Azərbaycana qarşı əsassız ərazi iddialarından, 1915-ci il hadisələrinə dair qondarma "erməni soyqırımı" təbliğatından, təzyiq və təhdidlərindən əl çəkməməsi, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və digər münaqişələr region və bütövlükdə dünya üçün ciddi təhlükə yaradır. Bu səbəbdən qeyri-hökumət təşkilatlarının, digər vətəndaş cəmiyyəti qurumlarının ələqəli fəaliyyətinə nail olmağın vacibliyi vurğulanıb.

Sonda konfrans iştirakçıları Azərbaycan və Türkiyə prezidentlərinə müraciət də ünvanlayıblar.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Sülhəddin Əkbərdən müxalifətlə bağlı ilginc proqnoz

## "Yeni siyasi-iqtisadi vəziyyət yeni müxalifət ortaya çıxaracaq, köhnə isə...."



**Manatın ikinci devalvasiyasından sonra Azərbaycanda sosial-iqtisadi vəziyyətin daha da gərginləşməsi, növbəti devalvasiya baş verər-verməz başda ərzaq məhsulları olmaqla, bütün məhsulların qiymətində kəskin artım müşahidə edilməsi, bir çox idarə və müəssisələrdə iş yerlərinin ixtisarlarının getməsi ölkədə yeni və xoş olmayan situasiya yaradıb.**

Bir sıra ekspertlər iddia edirlər ki, hökumət əhalinin durumuna müsbət təsir edəcək təcili tədbirlər görməsə, bu gedişlə ölkədə arzuolunmaz proseslər başlaya, hətta ara qarışa bilər. Bəs belə bir arzuolunmaz situasiya yaranarsa, təşəbbüsü hansı qüvvələr ələ ala bilər?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Azərbaycan artıq öz daxili siyasi inkişafında yeni bir mərhələyə qədəm qoyub. Bu mərhələdə çox təəssüf ki, indiyədək müxalifətçilik etmiş siyasi qüvvələr, hətta onların birliyi belə, öz potensiallarını tükəndiriblər: "Yəni onlar artıq nəinki dövlət siyasətinə, hökumət siyasətinə, hətta ictimai rəyə belə əhəmiyyətli təsir etmək imkanlarını itiriblər. 2005-ci ildən sonrakı dövr bunu aydın şəkildə nümayiş etdirdi. Bugünkü Azərbaycan müxalifətinin hətta bütün potensialı səfərbər olunsa belə, Azərbaycanda heç ictimai rəyə əhəmiyyətli təsir eləmək imkanı yoxdur. Bunun səbəblərindən danışmaq başqa söhbətin mövzusudur. Amma real vəziyyət budur ki, yeni mərhələnin xarakterсə, keyfiyyətcə yeni etiraz elektoratı ortaya çıxmaqdadır. Düşünürəm ki, bu etiraz elektoratının da fikirlərini ifadə edəcək yeni siyasi qüvvələr formalaşacaq. Ola bilsin ki, ənənəvi demokratik qüvvələr də müəyyən qədər bu struktura daxil olsun. Amma orada aparıcı, həlledici rol oynayacaqlarını düşünmürəm. Ölkədə yaranmış yeni siyasi, iqtisadi vəziyyət keyfiyyətcə yeni müxalifəti ortaya çıxaracaq".

**S.Əkbər qeyd etdi ki, bu yeni şəraitdə əgər dinc demokratik dəyişiklik olacaqsa, bu prosesin aparıcı qüvvəsi "milli burjuaziya" olacaq:** "Milli burjuaziya"nı ona görə dırnaq arası deyirəm ki, qanunsuz olaraq onlar ilkin kapitalı toplayıblar. Amma buna baxmayaraq, istənilən ölkədə demokratik dəyişikliklərdə milli burjuaziya aparıcı rol oynayır. Azərbaycandakı indiki siyasi inkişaf mərhələsi bunu tələb edir. Mənə elə gəlir ki, bu mərhələdə Azərbaycan milli burjuaziyası önə çıxmalıdır. Əsas hərəkətverici qüvvə də orta təbəqə olmalıdır. Deyirlər ki, orta təbəqə Azərbaycanda yoxdur. Amma potensial orta təbəqə var. Bunlar akademiya, universitet, institut işçiləridir, dövlət məmurlarıdır, orta biznesin nümayəndələridir, iri şirkətlərdə çalışan ağ yaxalıqlı yüksək təhsil almış insanlardır. Bu orta təbəqənin hərəkətə keçəcəyini birmənalı söyləmək çətindir. Amma tendensiya o istiqamətdə gedir. Çünki indiki şəraitdə ən çox itirən də milli burjuaziya və orta təbəqədir. Onsuz da lümpenləşmiş aşağı təbəqənin itirməyə bir şeyi qalmayıb.

Ya milli burjuaziya və orta təbəqənin özü siyasi qüvvə kimi ortaya çıxacaq, ya da hansısa siyasi qüvvəyə, siyasi qüvvələr birliyinə stavka edəcək. Burda ənənəvi müxalifət müəyyən nisbətdə iştirak edəcək. Amma bu iştirak prosesin içində sadəcə bir seqment olacaq".

**Hansı siyasi qüvvənin təşəbbüsü ələ ala biləcəyinə gəldikdə, S.Əkbər hesab edir ki, əgər indiki şəraitdə Azərbaycanda xarici təsirlə hər hansı bir oyun oynanacaqsa, qarışıqlıq vəziyyətində xalqı öz arxasınca apara biləcək azərbaycançı qüvvə yoxdur:** "Çox təəssüf ki, belədir və bu, qorxulu haldır. Azərbaycan demokratik müxalifəti bu illər ərzində xalqa verdiyi sözləri müxtəlif səbəblər üzündən yerinə yetirə bilmədiyi üçün ölkədə dinc demokratik dəyişikliklər mümkün olmadığı üçün xalqın inamını itirib. Problemin kökü burdadır. Yəni xalqın nə demokratik dəyərlərə, nə də bu dəyərləri daşıyan demokratik qüvvələrə inamı qalıb".

**Ukraynadakı maydan hadisələri prosesini xatırladan S.Əkbər dedi ki, Qərb əsasən prosesi dəstəkləyir və bu prosesin də aparıcı qüvvələri olur:** "Ukraynada prosesdə kimlər iştirak elədi, hakimiyyətə kimlər gəldi. Buna diqqət edin. O baxımdan deyirəm ki, burda həm hakimiyyət daxilindən qüvvələr ortaya çıxacaq və ya çıxarılacaq, həm orta və böyük biznesin nümayəndələri iştirak eləyəcək. Bu prosesə digər siyasi qüvvələr qoşulacaq. Xatırlayırsınızsa, Ukraynada Maydan prosesi başlayanda meydanda ən aktiv rolu oynayan "Pravıy sektor" və "Svoboda" idi. Amma indi hakimiyyət məsələsinə gəldikdə, baxın, "Pravıy sektor" və "Svoboda" hardadır? Azərbaycanda da xoşumuza gəlsə də gəlməsə də, ənənəvi müxalifətə düşünürəm ki, ayrılacaq rol belə ola bilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

# Azərbaycanda itən 18 milyard dollarla bağlı araşdırma başladı

**Təqaüddə olan xüsusi xidmət polkovniki Tofiq Rəcəbov Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində dindirilib. T.Rəcəbov bu haqda redaksiyamıza daxil olan xəbəri təsdiqləyib. Polkovnik deyib ki, onu Valeh adlı müstəntiq dindirib: "İfadəmi aldılar, ölkəyə gətirilən 18 milyardla bağlı əlimdə olan sənədləri verdim. Həmin sənədlər 18 milyardın Beynəlxalq Banka mədaxil olunması ilə bağlı idi. Təqdim etdiyim sənədlərdə Cahangir Hacıyevin, qəbul edən xəzinədarın imzası, bankın möhürü var. Sənədləri istintaqa təqdim etdim".**

## Təqaüddə olan xüsusi xidmət polkovniki Korrupsiyaya qarşı Mübarizə İdarəsində dindirildi

**T.Rəcəbov** deyir ki, sənədləri Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə təqdim edəndən sonra ona qarşı təzyiqlər başlayıb: "Mənə edilən təzyiqdə Azərbaycanda "qara pullar"ın yuyulmasında əli olan şəxslərin rolu var. Eldar Mahmudovun qaynı Fərhadın Zevin küçəsində ofisi var. Onlar ölkəyə qarşı düşmənçilik siyasəti yeridiblər. Ölkədən milyardlarla pul çıxarıblar. Bu adamların müxbir hesabları dünyanın ən yaxşı banklarındadır. "Siti bank", "Raiffeisen bank"dadır. Ölkədəki Eldar Mahmudova bağlı "brilyant mafiyası" pulları yerli banklar vasitəsilə həmin banklara axıdıb. Yoxlamaları xaricdəki həmin banklardan başlamaq lazımdır. Mən Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəhbərliyinə müraciət edirəm. Həmin banklara sorğu verib cavab alsınlar. Görsünlər ki, Eldar Mahmudov ətrafındakı bankirlərlə birgə dünyanın hər tərəfinə nə qədər pul köçürüb. Mərkəzi Bank sədri Elman Rüstəmovun, maliyyə naziri Samir Şərifovun bu qədər qanunsuzluqlardan xəbərləri olmayıb? Bu, mümkün deyil. Bu adamlar prezidenti aldadırlar. Bu gün yeni bir təşkilatın yaranmasına ehtiyac var. İstintaq komitəsi yaradıb səlahiyyət versinlər, ölkədən çıxarılan milyardların geri qaytarılması ancaq bu yolla mümkündür. Nazirlər, komitə sədrləri hər biri milyonçudur. Nəyin hesabına? Əlbir olub dövlətin pulunu dağıdıblar. Vətəndaşın əmlakının yağmalanmasına göz yumurlar. Banklar vətəndaşı soyur. Mənim əmlaklarımı əlimdən alıb Mixail Fransevin adına keçiriblər. Belə də şey olar? Azərbaycan konstitusiyası bankların qanunsuzluqları qarşısında aciz bir kitabçaya çevrilib".

**T.Rəcəbov deyir ki, məmurlar prezidentin qərarlarından öz şəxsi məqsədləri, varlanmaları üçün istifadə edirlər:** "Prezident dərmanların ucuzlaşması üçün qərar verdi. Nəticə nə oldu? Dərmanlar dəfələrlə bahalaşdı. 80 qəpiyə aldığım dərman devalvasiyadan öncə 2 manat 40 qəpiyə satılırdı. İndi yəqin ki, 4-5 manat olar. Bu adamlar hansı məzhəbə qulluq edir, bilinmir. Türkiyədə 7 lirəyə olan dərmanı Azərbaycanda 30-40 manata satırlar. Prezident qərar verir, bu mafiozlar isə ondan sui-istifadə edirlər. Monopoliyalar bir mafiyanın əlindən o birinin əlinə keçir. 1-ci devalvasiya zamanı Eldar Mahmudov və ətrafındakı bankirlər milyardlarla pulu ələ keçirdilər. Cinayət işi yerində sayır. Niyə?"

**T.Rəcəbov deyir ki, E.Mahmudovun Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovla əlaqələri də yoxlanılmalıdır:** "Eldar Mahmudov bütün gizli-aşkar əmlakları onun əli ilə özününküləşdirib. Mən sahibkaram, mənim nümunəmdə baxsınlar ki, Kərəm Həsənov Eldar Mahmudov üçün nələr edib. Xuluflu küçəsində yerləşən mənə məxsus şadlıq evini Kərəm Həsənov götürüb Eldar Mahmudova vermişdi. Mən şikayət edəndə Kərəm Həsənov dedi ki, oranı Eldar Mahmudova vermişik, danışma, şikayət eləmə, sənə şəhərin mərkəzində torpaq verəcəyik. Əmlak Komitəsində Yusif var, **050 200-08-03** iş telefonudur, 100 dəfə zəng etdim. Hər dəfə dedi ki, Kərəm müəllim deyir ki, narahat olmasın. İmkan versəydilər, özümün şadlıq evimi işlədib dolanardım. Mənim qədər mal-mülkü Eldar


THE INTERNATIONAL BANK OF AZERBAIJAN

Safekeeping receipt - SKR
Ref. 3874234N.IBA68744S.PLT168DB.FR.DE/64763R.SHSA17RLN
Date, February 06, 2012

Profile – 168 pallets euros in warehouse Baku airport is as follow:
The main location at, Deutsche Bank Frankfurt am Main 60325 Germany P.O.Box 4306 Frankfurt
Final whereabouts pallets, Warehouse Azerbaijan airport WAAZ
Where to send pallets, Warehouse airport Frankfurt - WAFR
Place of delivery pallets, Warehouse Azerbaijan airport WAAZ
Transfers on, February 06, 2012
Quantity, 168 pallets
Code currency, Euro / €
Each Box, 100 Million euros
Packing list no. BRINKS874367-171-46-16-674DB.FR.DE836432SHSA17RLN
Owner, Mr. SEYED SALEH HOSSEINI – Son SEYED ABOLHASSAN – Pass no. B 19424902
Airway bill no. 388-241DB.FR.DE763-83WAAZ836432SHSA17RLN

Mahmudov və bankir ətrafı tərəfindən əlindən alınan nə qədər sahibkar var. Bu adamlar öz səlahiyyətlərindən istifadə edərək sahibkarları məhv edirlər".

Yada salaq ki, ötən saylarımızda T.Rəcəbovun ölkəyə inqilab üçün 18 milyard pul gətirilməsi haqda yazı dərc etmişdik. Vaxtilə xüsusi idarədə işləyən T.Rəcəbovun sözləri əsasında hazırlanmış "Azərbaycana inqilab üçün 18 milyard gətirilmişdi" sərlövhəli yazıda pulun ölkəyə hansı yolla gətirilməsindən söhbət açılırdı.

**Həmin yazıdan sitat:** "Bu yaxınlarda mən biznesimlə əlaqədar İsveçrədə idim. Orada bir neçə adamla görüşdüm. Onlar təklif etdilər ki, bəzi məsələləri prezidentə çatdırmaq lazımdır, ölkəyə təhlükə var. Yəni bəzi nazirlər qrup halında birləşiblər. Xarici ölkələrin, xüsusən Avropanın və böyük dövlətlərin siyasi rəhbərliklərinə çıxış axtarırlar. Özlərinə dayaq axtarırlar ki, gələcəkdə hakimiyyətə yiyələnsinlər, öz əmlaklarını qorusunlar. Bakıya qayıdan kimi dərhal yazıb çox yüksək səviyyəli bir vəzifəliyə verdim. O da aparıb bunu verib Eldar Mahmudova. O da mənə çatdırdı ki, istəyirsən bu həyatda yaşayasan, bir də ağzına belə şey gətirmə. Akif Çovdarov qapımızı pusdururdu, oğlumu güdürdülər. Demişdilər ki, danışsan, oğlunu tutub yox edəcəyik. Bunlar 2 il əvvəl olub. 2013-cü ildə prezident seçkisindən əvvəl. Həmin pullar çevriliş etməyə xərclənməli idi. Həmin pullardan mənə də təklif etmişdilər. Demişdilər ki, zavodların var, o pulları zavodlarına ayıraq. Pulu seçkidən 2-3 ay əvvəl verməli idilər. Başa düşdüm ki, çevrilişə hazırlıq gedir".

Yazı dərc olunandan sonra bir çoxları T.Rəcəbovun dediklərinə şübhə ilə yanaşdılar. Sosial şəbəkələrdə mövzu günlərlə müzakirə edildi. Bu qədər məbləğin ölkəyə hansı yolla gətirildiyi haqda müzakirələr aparılmağa başladı. İddianın reallıqdan uzaq olması haqda uzun-uzadı fikirlər səsləndirildi. Bundan sonra T.Rəcəbov pulun ölkəyə gətirilməsini və Beynəlxalq Banka mədaxil olunmasını təsdiqləyən sənədləri ortaya qoydu.

❑ **E.MƏMMƏDƏLİYEV**


Oqtay Şirəliyev    Murad Şirəliyev

## Nazir oğlu Beynəlxalq Bankın Moskva filialının rəhbəri oldu

**"Azərbaycan Beynəlxalq Bankı-Moskva" ASC-nin ("ABB-Moskva") Müşahidə Şurasının tərkibi açıqlanıb.**

"APA-Economics"in xəbərinə görə, şuranın sədri Murad Oqtay oğlu Şirəliyevdir. Qeyd edək ki, M. Şirəliyev ABB-nin İdarə Heyətinin sədr müavinidir.

Müşahidə Şurasının digər iki üzvü isə İslamov Fuad Rafik oğlu və Dadaşov Məzahir Haqverdi oğludur. F.İslamov ABB-nin baş direktoru, M. Dadaşov isə ABB-nin Risklərin idarə edilməsi departamentinin direktorudur.

Xatırladaq ki, bundan öncə Müşahidə Şurasının sədri Hüseynov Qubad Əbdül Hüseyn oğlu olub. Q. Hüseynovun rəhbərliyi dönəmində şuranın üzvləri Həbibullayev Elmir Şirin oğlu və Hüseynov İlqar Orucəli oğlu olub. Əlavə edək ki, E. Həbibullayev hazırda ABB-nin baş direktorudur.

# Qızılın qiyməti iki dəfə bahalaşıb

## İqtisadçı ekspert: "Sahibkarın minlərlə problemi var"

**Devalvasiyadan sonra qızılın da qiymətində kəskin bahalaşma var. Qızıl mağazalarında apardığımız müşahidələrimizə əsasən, qızılın qiymətinin iki dəfəyədək bahalaşdığını deyə bilərik. Satıcılar alıcılıq qabiliyyəti aşağı düşsə də, qızılın qiymətinin onlardan asılı olmayan səbəbə görə bahalaşdığını və ucuzlaşmayacağını dedilər. Bahalaşma həm də beynəlxalq birjalarda qızılın qiymətinin qalxması ilə əlaqələndirilir.**

Baş çəkdiyimiz "Laçın" ticarət mərkəzində qızıllar bol olsa da, alıcıların sayı çox az idi. Hətta qızıl mağazalarında öz qızılını satanlara da rast gəldik. Öz qızılını satanlardan biri də paytaxt sakini Zülfiyyə Əliyeva idi. O, bahalaşma olduğu üçün üzüyünü satmağa məcbur qaldığını dedi: "Yeni ili qarşılamaq, uşaqlar üçün kiçik bir süfrə açа bilmək, həm də aylıq kredit borcumu verə bilmək üçün qızıl üzüyümü satmağa məcburam. Nə edə bilərəm ki, başqa çarəm də yoxdur. Məni işlədiyim özəl şirkətdən öz hesabıma məzuniyyətə göndərdilər ki, bir müddətdən sonra çağıracağıq. Allah yetirər, yəqin ki, vəziyyət həmişə belə qalmayacaq".

**Zülfiyyə xanım qızılı alanların insafsızıq etdiyindən və ucuz aldığından da şikayətləndi:** "Satanda baha satırlar, alanda isə ucuz".

**Satıcı nisyə dəftərini göstərərək nisyə qızıl alanların da artdığını dedi:** "Kimsə övladına nişan-toy etməlidir. Gəlib nisyə alır. Neyləyək, camaatı da başa düşmək lazımdır... Tanıdığımız adamlara nisyə qızıl veririk. Elə adam da var ki, gəlib çoxlu qızıl alır atır yastığının altına ki, qiyməti yenə bahalaşacaq".

Maraqlıdır, dolların 47 faiz artmasına baxmayaraq, qızılın qiyməti demək olar ki, 100 faiz bahalaşıb.



**İqtisadçı ekspert Rəşad Həsənov dedi ki, bazar iqtisadiyyatı prinsipləri daxilində hər bir bazar subyekti istədiyi qiyməti müəyyənləşdirə bilər:** "Burada süni bahalaşmadan söhbət getmir. Bir çox hallarda deyirlər ki, ölkədə olan qızıl məmulatları əvvəlki qiymətlərlə gətirilib və bu gün bu qızıl niyə baha satılır. Amma bu, çox səhv yanaşmadır. Birincisi, bir çox hallarda idxalçılar bilir ki, xaricdən məhsulları ölkəyə gətirib realizə edib sonradan ödənişini edirlər. Bu ödəmə də təbii ki, xarici valyuta ilə olacaq. İkincisi, bir çox hallarda bu gün biznesin 90 faizi kreditlərlə fəaliyyət göstərir. Bu kreditlər də əksər hallarda Azərbaycanda xarici valyuta ilə götürülüb. Üçüncüsü, sahibkarın istehlak etdiyi digər məhsulların qiymətləri qalxacaq. Yəni sahibkarın aylıq xərcləri artır. Sahibkarın aylıq xərci artırsa, bu da o deməkdir ki, mümkün qədər daha çox gəlir əldə etməlidir ki, bu xərcləri kompensasiya eləsin. Dördüncüsü, sahibkar növbəti dövrlərdə məcburdur ki, hansısa formada işçilərinin əmək haqqını artırsın. Çünki əvvəlki kvotanı qoruyub saxlasa, baxacaq ki, burada artıq faydalı iş çox aşağı düşüb. Sahibkarın minlərlə problemi var. Beşincisi, sahibkarın əlində tutaq ki, 100 min manat dəyərində kapital var. Bir il bundan əvvəl 100 min manat 125 min dollar edirdi və bu adam 125 min dollarlıq mal xidmətləri ölkəyə idxal edir, fəaliyyətini dövr etdirirdi. Bu gün üçün əlindəki məhsulları nağdlaşdırandan sonra yeni partiya məhsul almaq üçün ona əlavə olaraq 50 faiz artıq vəsait lazımdır ki, biznesin dövriyyəsini davam etdirə bilsin".

**Ekspert bəzən süni qiymət artımına da yol verildiyini dedi:** "Mən razıyam ki, müxtəlif zamanlarda süni qiymət artımları da olur. Bu da monopoliya, inhisarçılıq səbəbindən olur. Bu kimi hallar aradan qaldırılmalıdır. Azərbaycan vətəndaşının istehlak etdiyi hər bir məhsulda, qeyri-ərzaq məhsullarında, hətta xidmətlərdə belə monopoliya, inhisar faizi var. Bunlar aradan qaldırılmalıdır. Biznes reallaşarsa, heç kim Azərbaycanda süni qiymət artımından danışa bilməz. Qiymətlər bazar prinsipləri əsasında formalaşır. Əgər biz bu gün süni qiymət artımından narahatıqsa, onu müzakirə edirikə bunun əsas səbəbi məhz ölkə iqtisadiyyatında rəqabət mühitinin normal olmamasıdır. Bu istiqamətdə səylər artırıb, növbəti dövrlərdə bu kimi mənfi halların qarşısını almalıyıq".

❑ **Günel MANAFLI**
**Foto müəllifindir**

# Həbsdəki generallar Eldar Mahmudovu ələ verir

## Sabiq nazirin barəsində ziddiyyətli xəbərlər var

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovla bağlı ziddiyyətli xəbərlər yayılıb. Onun müalicə adı ilə ölkədən çıxması iddiası var. Digər bir mənbə isə onun sadəcə saxlanıldığı yerin dəyişdirildiyini bildirir.**


Eldar Mahmudov

Eldar Mahmudov oktyabrın 17-də tutduğu postdan uzaqlaşdırılandan sonra onun Badamdar qəsəbəsindəki imarətinə aparıldığı, sonradan isə MTN-in Bilgəhdəki sanatoriyasına yerləşdirildiyi haqda məlumatlar yayılmışdı. Ən son məlumatlara görə, E.Mahmudov oradan çıxarılıb və naməlum istiqamətə aparılıb. Tamamilə mümkündür ki, onu digər saxlama yerinə köçürüblər.

MTN-in Antiterror Mərkəzinin rəisi, general Elçin Quliyevin həbsi istintaqı keçmiş nazir Eldar Mahmudovun həbsinə daha bir addım yaxınlaşdırıb.

İstintaqa yaxın mənbələrdən virtualaz.org saytına məlum olub ki, MTN işi üzrə araşdırmalar dərinləşdikcə, Eldar Mahmudova qarşı ittihamların irəli sürülməsi də qaçılmaz görünür. Xəbər verildiyi kimi, general Elçin Quliyev əvvəlcə vəzifəsindən azad edilərək MTN Akademiyasına müəllim göndərilmişdi. Belə təsəvvür yaranırdı ki, E.Quliyev həbs təhlükəsindən sovuşa bilib. Baxmayaraq ki, onun müavini, Mahmudov-Çovdarov bandasının "qvardiyaçısı" polkovnik İlqar Əliyev hələ oktyabr ayında, Eldar Mahmudovun qruplaşmasının zərərsizləşdirilməsi üçün Xüsusi Dövlət Mühafizə Xidmətinin keçirdiyi xüsusi əməliyyatda həbs edilmişdi. Bir neçə gün əvvəl isə İ.Əliyev təcridxanada özünü asaraq intihar etdi. Və maraqlıdır ki, İ.Əliyevin həbsindən sonra istintaq gözlənilmədən E.Quliyevin barəsində həbs qərarı verdi. Belə görünür ki, bu qərarın verilməsində İ.Əliyevin istintaqa verdiyi ifadələrin rolu olub. MTN işi üzrə istintaq prosesi olduqca qapalı aparıldığından və mətbuata informasiya sızdırılması xeyli məhdudlaşdırıldığından təfərrüatlar barədə məlumat yoxdur. Bununla belə, istintaqa yaxın mənbələr deyirlər ki, həbs edilənlər bir qayda olaraq rəisləri-ni "satırlar"...

Mənbələr ehtimal edir ki, bugünlərdə yeni yaradılan Dövlət Təhlükəsizliyi Xidmətində vəzifə almayan, nəticədə xüsusi xidmət orqanlarından kənarlaşdırılan keçmiş nazir müavini Hilal Əsədovun da həbsinə sanksiya vermək üçün istintaqda dəlillər toplanmaqdadır. Bəzi ehtimallara görə, həbsləri E.Mahmudovda yekunlaşdırmaq üçün ondan əvvəl H.Əsədovu da həbs edə bilərlər.

Ötən saylarımızdan birində MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi Sübahir Qurbanovla Füzuli Rayon Təhsil Şöbəsinin keçmiş müdiri Almaz Haşımovanın əlaqələri haqda yazmışdıq. Aldığımız son məlumata görə, hazırda A.Haşımovanın fəaliyyəti çox ciddi şəkildə yoxlanır. Almaz Haşımovanın MTN-in Binəqədi rayon şöbəsində çalışan oğlunun da işdən çıxarıldığı bildirilir. Almaz Haşımova rayonun təhsil şöbəsinə Alı Aliyev Füzulinin icra başçısı təyin ediləndən sonra gətirilib. Almaz Haşımova qohumu, MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin keçmiş rəisi Sübahir Qurbanovun sayəsində rayonda sahibkarların, vəzifəli və imkanlı şəxslərin telefon danışıqlarını dinləyə bilib.

Daha bir məlumatda deyilir ki, bu yay Almaz Haşımova Sübahir Qurbanovla birlikdə Soçidə istirahətdə olub.

Belə ki, Sübahir Qurbanov Soçiyə gedəndən bir neçə gün sonra Almaz Haşimova bacısı ilə ora gedib, bütün xərcləri isə Sübahir Qurbanov çəkib.

Qeyd edək ki, Almaz Haşımova mətbuata açıqlamasında Sübahir Qurbanovla qohum olmasını təsdiqləyib.

### "MTN işi"nə görə rəisin oğlu akademiyadan qovulub

"MTN işi"nə görə ləğv olunmuş qurumun İmişli rayon şöbəsinin rəisi Azər Səlimov da dindirməyə cəlb edilib. A.Səlimovun adının İmişlidəki sahibkarların, vəzifəli və imkanlı şəxsləri gizli və qanunsuz dinlənilməsinə qarşıdığı bildirilir. Qeyd olunur ki, A.Səlimovun təzyiq və şantaj etdiyi adamlar arasında Azərbaycan Şəkər İstehsalat Birliyinin (İmişli Şəkər Zavodunun) rəhbəri Fərhad Tuğal da olub. Məlumatda o da bildirilir ki, Azər Səlimovun MTN-in Heydər Əliyev adına Akademiyasının 4-cü kursunda oxuyan oğlu Səlim Səlimov ordan qovulub. Belə ki, aparılan araşdırma zamanı məlum olub ki, Azər Səlimov oğlunu qeyri-qanunu yolla akademiyaya qəbul etdirə bilib.

"MTN işi" başladılan gündən bu yana qurumla bağlı xeyli məlumatlar ortaya çıxıb. Qanunsuz dinləmələr, sahibkarların qanunsuz həbsi, bəzi hallarda vəhşicəsinə döyülməsi, işgəncələrə məruz qoyulması, şəxsi həbsxanalarda saxlanılması, hətta MTN əməkdaşlarının intihalarına yol açan hərəkətlərə yol verilməsi halları haqda müfəssəl, həqiqiliyi şübhə doğurmayan məlumatlar var.

E.Mahmudovun 10 il nazirliyi dövründə qurum əməkdaşları tərəfindən törədilən cinayətlərin sayı-hesabı itib. Bu cinayətlərin üzə çıxmasının qurumun adının dəyişdirilməsində böyük rol oynadığına şübhə yoxdur.

Halbuki E.Mahmudov bu vəzifəyə təyin olunduqdan sonra qurumun həyata keçirdiyi "Qara kəmər" əməliyyatı MTN-in adının doğrultması istiqamətində yaddaqalan addımlardan biri olmuşdu. Həmin əməliyyatla 10 il fəaliyyətdə olan böyük bir cinayətkar banda ifşa olunmuşdu. Sonrakı 10 il ərzində baş verənlər isə qurumun adının dəyişdirilməsinə, faktiki isə ləğvinə gətirib çıxardı. Bu gün Eldar Mahmudovun nazirliyi dövründə MTN-də baş verənlərlə Hacı Məmmədovun bandasının fəaliyyətdə olduğu 10 illik müddət ərzində törədilən cinayətləri müqayisə etsək, Hacı Məmmədovun törətdikləri kölgədə qalmış olar.

Bu baxımdan da Eldar Mahmudov onun nazirliyi dövründə törədilən cinayətlərə görə cəzasız qalmamalıdır.

❑ E.HÜSEYNOV



# "Elman Rüstəmov AXC-nin kadrı deyil"

## Pənah Hüseyndən deputata cavab: "Elman Rüstəmovu tənqid edərkən AXC-ni xatırlatmaq ayıbdır"


Pənah Hüseyn

**Milli Məclisin son iclası sensasion açıqlamalarla yadda qalıb. Xüsusən də deputat Qüdrət Həsənquliyevin Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov haqqında səsləndirdiyi fikirlər müzakirəyə səbəb olub.**

Hazırkı iqtisadi vəziyyətlə bağlı da fikirlərini bölüşən Q.Həsənquliyev bunun ardınca sensasion fikirlər söyləyib: "AXC-nin uğursuz bir kadrı kimi, çox təəssüf ki, indiki iqtidar Elman Rüstəmovu uzun illər bu postda saxladı".

Qüdrət Həsənquliyevin bu fikirlərinə AXC hakimiyyəti dövründə ölkənin baş naziri olmuş, Azərbaycan Xalq Partiyasının sədri **Pənah Hüseyn** münasibət bildirərək, onun sözlərini mənasız adlandırıb: "AXC-nin kadrlarının uğurlu və uğursuzları, əlbəttə ki, olub. Biri elə Qüdrət Həsənquliyevin özü... Ondan fərqli olaraq, Elman Rüstəmov heç vaxt AXC üzvü olmayıb və AXC-ni təmsil etməyib. 1990-cı ildən Prezident Aparatında çalışıb və 1992-ci ildə ümidverən mütəxəssis kimi vəzifə verilib. AXC hakimiyyəti dövründə Mərkəzi Bankın siyasətini o müəyyən etməyib, rəhbər və bank siyasətinin müəyyənedicisi Cavanşir Abdullayev olub. Bu baxımdan, siyasi mənada AXC-nin kadrı kimi də Cavanşir Abdullayev sayıla bilər. Elman Rüstəmov 1995-ci ildə indiki iqtidar tərəfindən o vaxtkı Milli Bankın rəhbəri təyin edilib. 20 ildir ki, bu vəzifədədir və bu mənada, birbaşa indiki iqtidarın kadrıdır. Bir vaxt ümidverici, alim, mütəxəssis kimi zay olubsa da, bir sıra digər "AXC kadrları" kimi zayı indiki iqtidarın siyasətinin nəticəsi olaraq, "korrupsiya qazanı"nda və sayəsində çıxıb. Odur ki, Elman Rüstəmovu tənqid edərkən AXC-ni xatırlatmaq, sadəcə, ayıbdır və adamın gülüb, "ar olsun" deməyi gəlir".

# Ermənilərin evini yandırdığı ailə icra başçısından kömək istədi



**2015-ci ilin fevralında Tovuzun Əlibəyli kəndində ermənilərin intensiv atəşi nəticəsində evi yanan İsmayıl Nəbiyevin ailəsi dövlət qurumlarından kömək istəyir. Redaksiyamıza gələn İ.Nəbiyevin qardaşı Eldar Nəbiyev deyir ki, mənfur ermənilərin yandırdığı ev bu gün də boş qalıb: "Qardaşımın evi 200 kvadrat metrdir. Bu il fevralın 5-də ermənilərin atdığı mərmi evə düşüb, ev tamamilə yanıb. 5 otaqlı evdə olan bütün əmlaklar - geyim, ev əşyaları, avadanlıqlar, cehizlik qızıl, 600 manat pul hamısı yanıb külə dönüb. 6 nəfər ailə üzvünün yeməyə çörəyi, geyinməyə paltarı yoxdur. Qohum-qonşuların köməyi ilə birtəhər günü-günə calayırlar. Qardaşım evdən heç nə çıxara bilmədi".**

E.Nəbiyevin sözlərinə görə, ev söndürüləndən sonra onun bərpa olunması üçün dövlət qurumları hərəkətə keçib. Lakin...

"Evi Fövqəladə Hallar Nazirliyi (FHN) Bərpa İdarəsi tikib qardaşıma verib. Amma müharibə iştirakçısı olan qardaşım orada yaşaya bilmir. O, 6 min manata yaxın borca girərək evin təmirinin başa çatırılmasını tezləşdirməyə çalışıb. Buna baxmayaraq, evdə bu gün də yaşayış üçün minimal şərait yoxdur. Qardaşım İsmayıl Nəbiyev 1992-ci ildə kəndini, elini-obasını qorumaq üçün orduya yazılıb. Rabitə komandiri kimi 3 il xidmət edəndən sonra tərxis olunub, müharibə iştirakçısıdır. Yaşamaq üçün heç bir şəraiti, ev əşyaları, avadanlıqları olmayan bu evdə körpə nəvələrlə yaşamaq mümkün deyil. Ümidimiz Tovuz Rayon İcra Hakimiyyətinədi. Qardaşım 6 nəfər ailə üzvü ilə 27 il erməni güllələrinə sinə gərib, mərdliklə dözürlər. Mənim xahişim, 6 nəfər ailə üzvünün minimal yaşamaq hüququnu təmin etmək arzusundan qaynaqlanır. Bu soyuq qış aylarında qardaşımın ailəsinin öz evinə köçməsinə kömək edilməsini istəyirəm. Ümid edirik ki, Tovuzun icra hakimiyyətinin başçısı hörmətli Tofiq Zeynalov bizim səsimizə səs verəcək və bu ailənin normal həyata dönməsinə yardım edəcək".

❑ E.MƏMMƏDƏLİYEV

# İtkin neftçilərin ailələrinə birdəfəlik yardım verilməsi başa çatdı

**Dekabrın 4-də təbii fəlakət nəticəsində baş vermiş qəza zamanı həlak olan və itkin düşən SOCAR əməkdaşlarının hər birinin ailəsinə 15 000 (on beş min) manat məbləğində birdəfəlik maddi yardımların ödənilməsi dekabrın 29-da başa çatıb.**



Virtualaz.org SOCAR-ın mətbuat xidmətinə istinadən bildirir ki, Maliyyə Nazirliyinin köçürdüyü vəsait, eləcə də həmin gün Neft Daşlarındakı 501 saylı özüldə baş vermiş qəzada itkin düşən üç nəfər neftçinin ailəsinə SOCAR tərəfindən ayrılmış 15 000 manat məbləğindəki birdəfəlik maddi yardımlar şirkətin "Azneft" İstehsalat Birliyi, "Neftqaztikinti" Tresti, Kompleks Qazma İşləri Tresti, Dalğıc və Qəza-Xilasetmə İşləri İdarəsi, Nəqliyyat İdarəsi, həmçinin digər idarə və müəssisələrindən olan neftçilərin ailə üzvlərinə təqdim olunub.

Dövlət tərəfindən ayrılmış 15000 manat məbləğində maddi yardımlardan əlavə, SOCAR da qəzalar zamanı həlak olmuş və itkin düşmüş neftçilərin hər birinin ailəsinə 5000 (beş min) manat məbləğində birdəfəlik maddi yardım ödənilməsinə başlayıb. Bu yardımların cari ilin sonuna qədər təqdim olunacağı planlaşdırılır.

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

**Artıq 2015-ci il son günlərini yaşayır. Bir sıra problemlər kimi, dünyanı ağuşuna alan İŞİD problemi də bu il həll yolunu tapmadı. Doğrudur, ilin sonlarına yaxın bununla bağlı bəzi təqdirəlayiq addımlar atıldı. Xüsusilə Fransa terrorundan sonra. Lakin dünya ölkələrini daim təhdid altında saxlayan bu problem hələ də qalmaqda davam edir.**

# 2016-cı ildə İŞİD məhv ediləcəkmi?

## Böyük dövlətlər bu problemdən maraqları üçün istifadə edirlər...

Bu ilin noyabrında Türkiyənin Antalya şəhərində keçirilən G20 sammitindən sonra İŞİD probleminin aradan qalxacağına inam böyük idi. Lakin sammitdən dərhal sonra Türkiyə-Rusiya münasibətlərində yaranan məlum gərginlik İŞİD məsələsinin həllini arxa plana atdı. Bu baxımdan üzümüzə gələn ilin necə keçəcəyi, ilk növbədə, bu problemin həll olunub-olunmayacağı hazırda dünyanın qarşısında duran əsas məsələlərdən biridir.

**MTN-in sabiq polkovniki İlham İsmayıl 2016-cı ildə İŞİD probleminin aradan qaldırılacağına inanmır:** "2016-cı ilə builki kimi problem qalmır. Amma dünyanın gücləri arasında gedən mübarizə-faktiki olaraq mübarizə gedir, fikir ayrılığı yoxdur- İŞİD probleminin aradan qalxmasına imkan verməyəcək. Hələ də Bəşər Əsəd məsələsi həll olunmayıb. Suriyanın gələcəyi müəmmalı qalır. Rusiya, nisbətən də İran bu məsələlərdə geri çəkilməyib. İŞİD məsələsi kontrolda olsa da, aradan çıxmayacaq. Kontrolu ABŞ və Avropadakı müttəfiqləri, xüsusilə Türkiyə nəzarətdə saxlayacaq. 2016-cı ildə bu problemlərin həll olunacağı gözlənilmir. Rusiyanın vəziyyəti get-gedə gərginləşir. Neftin qiymətinin aşağı düşməsi davam edir. Üzümüzə gələ il Rusiya üçün çox çətin keçəcək. Rusiyanın gərginliyi bütövlükdə Putinin gərginliyidir. Nəticədə Putinin gərginliyi getdikcə artmaqdadır. Onun aqressivliyi artdıqca, Suriya məsələsi uzana bilər. Çox təəssüf ki, bu belədir. İŞİD bir gücdür. Özü də çox problemli gücdür. Kimsə özünü güclü göstərəndə, mütləq onun arxasında bir maraq dayanır. Təəssüf ki, bu maraqların arxasında böyük dövlət durur. İŞİD-in işini 24 saat ərzində də bitirmək olar. Amma böyük dövlətlərin marağı heç inanmıram ki, buna imkan versin".




**İ.İsmayıl İŞİD-in özündən böyük dövlətlərin istifadə etdiyini düşünür:** "Təkcə İŞİD yox, bir güc ortaya çıxanda, müəyyən dövlətlər çalışır ki, bu gücdən istifadə etsin. Birinci və ikinci dünya müharibələrindən sonra güclü dövlətlər arasında problemlər həll olunmaq üzrə idi. Lakin atom bombası meydana çıxandan sonra bu alınmadı. Lakin müharibə vəziyyətinə də çatmadı. XX əsrin sonlarında güclənən terror təşkilatları XXI əsrdə daha mütəşəkkil formada ortaya çıxdı. İndi tamam fərqli situasiyadır. İŞİD torpaq tutur, dövlət qurur. Dövlət arasındakı münasibətlərdə İŞİD-dən yararlanma var. Birdən-birə bu məsələnin həlli çox çətindir. Hələ yeri gələndə bu terror qruplaşmasından istifadə edəcəklər. Bu məsələnin həlli Rusiyadan asılıdır. Rusiya Suriya məsələsində geri çəkilsə, problem sürətlə həll olunacaq".

**Sabiq MTN-çi Türkiyə-Rusiya münasibətlərinin ilin sonlarında gərginləşməsinin İŞİD probleminin həllinə imkan vermədiyi fikirləri ilə razı deyil:** "Rus təyyarəsinin vurulması münasibətləri gərginləşdirdi. Amma Türkiyə, Rusiya, ABŞ, Fransa və digər dövlətlər bu məsələnin həlli üçün koalisiyaya gəlmişdilər. Quru qoşunlarının əməliyyatları ilə bu məsələ həll olunan deyildi. Çox güman ki, Türkiyə əməliyyatlara başlamalı idi. Lakin bu bir qədər dayandırıldı. Suriyanın taleyi həll olunmadığına görə. Rusiya mövqeyini gücləndirmək üçün yalandan Türkiyənin İŞİD-i dəstəkləməsi ilə bağlı fikirlər səsləndirdi. Səhərisi gün Türkiyə-Rusiya münasibətləri istiləşsə belə, Suriya məsələsi həll olunmayınca, İŞİD problemi qalacaq. Amma hər iki ölkənin tezliklə münasibətlərinin düzələcəyi ehtimal olunmur. Rusiya gecə-gündüz Türkiyəyə qarşı öz planlarını qurur".

**İlham bəy İŞİD probleminin Azərbaycan üçün təhlükələrinin artacağı ehtimallarından da söz açdı:** "Azərbaycan bu məsələlərdə koalisiya şəklində mövqeyini ortaya qoyub. Terrora qarşı mübarizədə ölkəmiz konkret mövqe tutub. Hesab edirəm ki, bundan sonra da tutmalıdır. Azərbaycanın hədəfə gəlməsi mümkündür. Ona görə ki, Fransada baş verən terror hadisəsindən sonra Amerikanın kəskin mövqeyi var idi. İŞİD həmin vaxt ABŞ-ı hədələdi və nəticədə iki kamikadze-ər-arvad Kaliforniyada böyük hadisə törətdilər. Səhərisi gün Azərbaycanı hədəf götürdüklərini elan edə bilərlər. Ölkəmizdə hələ də radikal dindarların kökü kəsilməyib. Hələ xeyli hissəsi var, xeyli hissəsi də Suriyada döyüşür. Terrordan sığortalanmamışıq. Amma böyük şəkildə İŞİD-in hədəfi deyilik. Sadəcə, təzyiq vasitəsi kimi istifadə oluna bilər. 2016-cı ildə ölkəmizdə iqtisadi krizis daha da artacaq. Bu amildən də istifadə edənlər ola bilər. Ayıq-sayıq olmalıyıq. Dövlət təhlükəsizliyə ciddi fikir verməlidir. 2016-cı il Azərbaycan üçün siyasi-iqtisadi və təhlükəsizlik baxımından gərgin il olacaq".

❑ **Cavanşir ABBASLI**

## Saakaşvili Türkiyəyə gedib

**Ukraynanın Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili Türkiyəyə səfər edib.**



Mixail Saakaşvili

**APA-nın xəbərinə görə, bu barədə M. Saakaşvili özünün facebook səhifəsində məlumat verib. O, İstanbul bələdiyyə başqanı Kadir Topbaşın dəvəti ilə İstanbulda olduğunu bildirib: "Mer Kadir Topbaş şəhərdə həyata keçiriləcək layihələrlə bizi tanış etdi. Biz Odessadakı İstanbul parkının yenidən qurulmasını da müzakirə etdik. İstanbul meriyası parkı çox gözəl və rahat bir yerə çevirmək üçün bütün xərcləri öz üzərinə götürür. Biz razılaşdıq ki, parkın açılışına türk iş adamlarından ibarət böyük nümayəndə heyəti gələcək və Odessa vilayətindəki investisiya layihələri müzakirə olunacaq. Gələn il yanvarın sonunda isə biz Odessanın investisiya imkanlarına dair İstanbulda təqdimat keçirəcəyik".**

## Səudiyyə Ərəbistanının büdcəsi çökdü

**Səudiyyə Ərəbistanında gələn ilin dövlət büdcəsi açıqlanıb.**

**Büdcə kəsiri təqribən 98 milyard dollardır. Rəsmi Ər-Riyad dünya bazarlarında neftin qiymətinin daha da ucuzlaşmasını gözləyir.**

"Al Jazeera" bildirir ki, gələn il Səudiyyə Ərəbistanının toplam büdcə gəlirləri 137 milyard olacaq. Bu da 2014-cü illə müqayisədə 25 milyard azdır.

Büdcə kəsirinin nəzərdə tutulan məbləğdən artıq olması hərbçilərə, dövlət qulluqçularına və təqaüdçülərə ödənilən maaşlar, təqaüdlər və ödənişlərlə bağlı xərclərin artması, habelə sosial xərclərdən qaynaqlanır.

Səudiyyə Ərəbistanının Maliyyə Nazirliyi təxminən 49 milyard dolları bəribaşdan xüsusi fonda yatıracaq. Bu fond dünya bazarlarında neftin daha da ucuzlaşacağı təqdirdə ölkə üçün mühüm layihələri maliyyələşdirmək üçündür.

Büdcə neftin 1 barelinin qiymətinin 29 dollar hesabı ilə hazırlanıb. Səudiyyə Ərəbistanı bu il neft hasilatını kəskin şəkildə artıraraq sutkada 9,683 milyon bareldən 10,266 barelə çatdırıb.

Virtualaz.org xatırladır ki, Beynəlxalq Valyuta Fondu (IMF) dünən Səudiyyə Ərəbistanına neft gəlirlərinin sürətlə aşağı düşdüyü bir zamanda xərclərini məhdudlaşdırmayacağı təqdirdə iflasa uğraya biləcəyi barədə xəbərdarlıq etmişdi.(milli.az)

# "Yenə itirən kürd xalqı, türk-kürd qardaşlığı olacaq"

## Tahir Süleyman Dəmirdaşın müdafiəsinə qalxdı

**Türkiyə prezidenti Rəcəb Teyyub Ərdoğan Xalqların Demokratik Partiyasının (HDP) sədri Səlahəddin Dəmirdaşa qarşı çox ciddi ittihamlar səsləndirib. Ərdoğan deyib ki, Suriyadakı son hadisələr terror təşkilatı olan PKK-nın iştahasını bir qədər artırıb.**

"Onlar ölkələrindəki terror hadisələrini ölkəmizə daşımaq niyyətindədirlər. Biz bunlara fürsət vermədik, vermiyəcəyik də. Hazırda güc strukturları çox uğurlu əməliyyatlara imza atırlar. Ölkə daxilində və xaricində zərərsizləşdirilən terrorçuların sayı 3 mini keçib. Onlar tam yox edilənə kimi əməliyyatlar davam edəcək.

Bugünlərdə bir çox insanların maskalarının düşdüyünü görmək mümkündür. Dəmirdaş Rusiya səfəri zamanı "qulağına pıçıldanan" bəzi xəbərlərdən coşub çıxışlar edib. Onun etdikləri provakasiyadır, xəyanətdir. Türkiyə üzərindən hər hansı bir əməliyyat həyata keçirmək istəyənlərin hamısı boyunun ölçüsünü alıb. Terror təşkilatı və onun kuklası olanlar çox diqqətli olsun" - deyib Ərdoğan .

HDP sədrinin Moskvaya getməsi və orada Türkiyə əleyhinə açıqlamaları Azərbaycanda da bir çox siyasi qüvvələrdə, sadə insanlarda narazılıq yaradıb. Dəmirdaşın hərəkətinə Azərbaycan Kürdləri İctimai Birliyinin sədri **Tahir Süleymanın** münasibətini öyrəndik.


Tahir Süleyman

**O, Dəmirdaşın bir deputat və partiya sədri kimi hansısa ölkəyə səfər etməkdə sərbəst olduğunu dedi:** "Rusiyaya da səfər etməsi normal və haqlıdır. Səlahəddin Dəmirdaş Moskvada Türkiyənin yox, AKP iqtidarının əleyhinə açıqlamalar verib. Çox doğru da edib. Əsrlərdir bir yerdə yaşayan iki qardaş xalqı bir-biri ilə üz-üzə qoymağa, bir-birinə qırdırmağa çalışan hökuməti tərifləməli deyildi. Dəmirdaş görür ki, soydaşları yaşayan kəndlər dağıdılır, soydaşları yurd-yuvalarından didərgin salınır. Ukraynadan və digər ölkələrdən Məhsəti türklərini boşaldılmış kürd kəndlərinə gətirib yerləşdirirlər. Belə bir durumda o, nə etməlidir? Dəmirdaş öz xalqının qırğınını dünyaya çatdırmaq istəyir. Yaxın zamanlarda dünyanın digər ölkələrinə də səfər edəcək. Onun səfərləri Türkiyə dövlətinə qarşı deyil. Sadəcə, Türkiyəni ağır durumla üz-üzə qoyan hakimiyyətə qarşıdır".



Səlahəddin Dəmirdaş

**T.Süleymanın fikrincə, Ərdoğan imkan yaratmamalıydı ki, ruslar kürd məsələsinə bunlarını soxmaq şansı qazansınlar:** "Dünya tarixində hər zaman kürdlər Türkiyənin qorunması üçün canlarını sipər ediblər. Sarıqamışda, Çanaqqalada minlərlə kürd canını fəda edib Türkiyə üçün. Təəssüf ki, həmişə də sonradan çıxdaş olunublar. İndi də şübhəsiz ki, nə Rusiya, nə ABŞ, nə də Avropa kürdlərə qarşı səmimi deyil. Sadəcə, bölgədə sərvətlərin bölüşdürülməsi savaşı gedir və bu savaşda kürdləri öz oyunlarına gətirmək istəyirlər. Guya kürdlərə haqq verirlər. İnhisarçı dövlətlərin hamısı öz mənafelərini güdür. Gərək Türkiyə iqtidarı kürdlərlə elə davranaydı ki, kürdlər o dövlətləri özlərinə yaxın buraxmayaydı. Kürdlər sıxışdırıldıqca, istər-istəməz özlərinə kənarda dəstək axtarmağa məcbur olurlar. İmperialist dövlətlər isə vəziyyətdən öz məkrli niyyətləri üçün istifadə edirlər. Yenə də Rusiya ilə Türkiyənin münasibətləri düzələcək, iqtisadi əlaqələri olacaq, yaxınlaşacaq. Yenə ortada itirən kürd xalqı, türk-kürd qardaşlığı olacaq".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

# "Nazirlər hərəsi 1 milyard pulundan keçsin"

## Hafiz Hacıyev baş nazirin birinci müavini olmaq istəyir

**"Azərbaycan iqtisadiyyatının ağır duruma düşməsini, bütün məhsulların bahalaşmasını beynəlxalq iqtisadi faktorlarla bağlamaq yanlışdır. Azərbaycanın bu vəziyyətə düşməsi Azərbaycan hökumətindəki mafioz qrupların acgözlüyü, daxili intriqalar və prezidentə qarşı xəyanətlərin nəticəsidir". Bu barədə Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirib.**


Hafiz Hacıyev

O qeyd edib ki, nazirlər ölkəni talayıb viran qoyublar, indi də hər şeyi bir nəfərin üzərinə yükləmək istəyirlər: "Ölkənin iqtisadiyyatına əsas cavabdeh hökumətdir-Nazirlər Kabinetidir. Nazirlər Kabinetinin bir çox üzvləri isə ölkə iqtisadiyyatını məhv ediblər və xalqı prezidentlə üz-üzə qoymaq istəyirlər. Azərbaycan hökuməti qocalar evidir. Əksəriyyəti qocalıb, katibələri qollarından tutmasa yeriyə də bilmirlər. Prezidentin özü də dəfələrlə bəyan edib ki, islahatlar sürətlə aparılmalıdır. Prezident bunun üçün sərəncamlar verib. Lakin prezidentin fərmanları, sərəncamları hökumət üzvləri tərəfindən sabotaj olunur. Prezident 2015-ci ildə kənd təsərrüfatına on milyonlarla manat vəsait ayırdı. Gəlin görək cavabdeh qurumlar və şəxslər kənd təsərrüfatını buna uyğun səviyyədə inkişaf etdirdilərmi? Bu gün ölkədə yumurta 30 qəpikdirsə, kartof xaricdən gətirilirsə, Kənd Təsərrüfatı Nazirliyi niyə cavab vermir? Fermerlər südü satmağa yer tapmırlar. Kənd təsərrüfatı naziri Heydər Əsədov xaricdən poroşok alıb gətirib süd adına millətə sırıyır. Ölkədə hər şey xaricdən alınır. Bunda müəyyən qrupların maraqları rol oynayır. Bu qrupların bir hissəsi Eldar Mahmudova bağlanır. Eldar Mahmudovla əlaqəli baş nazir müavini var, nazirlər, komitə sədrləri var. Mən hələ iki ay öncə bildirmişdim ki, nə qədər ki, Eldar Mahmudov tutulmayıb, ölkədə çox şeylər baş verəcək. Nardaran hadisələrini süni surətdə yaratdılar. Dənizdəki faciəvi hadisəni də mən terror hesab edirəm. Prezidentin başını qatmaq, islahatların qarşısını almaq üçün mafioz qruplar yüz oyundan çıxırlar. Qocalar evinə çevrilmiş Nazirlər Kabineti təcili istefaya göndərilməlidir. Bir-iki nəfər istisna olmaqla, nazirlərin və komitə sədrlərinin iş başında qalması bu xalqı uçuruma aparır. Bu adamlar xalqı axırda prezidentlə üz-üzə qoyacaqlar. Dar ayaqda bunlar prezidenti, ölkəni qoyub qaçacaqlar. Mən onun və xalqın naminə prezidentə yalvarıram, bu cür adamları vəzifədən uzaqlaşdırsın və cəzalandırsın. Sözümü çatdırmaq üçün Prezident Administrasiyasının qarşısında özümü yandırmağı belə düşünürəm".

**H.Hacıyev baş nazir Artur Rəsi-Zadənin baş nazir kimi işinin öhdəsindən gəlmədiyini də dedi:** "Siz Artur Rəsi- Zadənin hansısa kənd təsərrüfatı rayonunda fermerlərlə, kəndlilərlə görüşdüyünü görmüsünüz? Görə bilməzsiniz. Onun müavini İsmət Abbasov Eldar Mahmudovla brilyant alveri edirdi. Bu adamlar artıq işləmək qabiliyyətlərini itiriblər. Bütün işləri prezident görəcəksə, bu Nazirlər Kabineti-qocalar evi nəyə lazımdır?! Ölkə iqtisadiyyatı gəlib pis həddə çatıb, baş naziri gördüm deyən var?! Bu nazirlər gecə-gündüz Azərbaycandan oğurlayıb xarici banklara yığdıqları milyardları fikirləşirlər. Allah qoysa, bu gün-sabah Amerika sanksiyanı qoyacaq onların pulları batacaq orada. Ölkə dar ayaqdadır, bu nazirlər prezidentə, xalqa kömək üçün hərəsi 1 milyard pulunun başından keçib büdcəyə versə, 20-30 milyard pul toplanar. Bu vəsait ölkəni ağır durumdan çıxarar. Hökumət prezidentlə ayaqlaşa bilmir, qocalıb. Abırları-həyaları olsun, özləri istefa versinlər. Onsuz da bu cür çıxışlarıma görə bir gün məni öldürəcəklər. Lakin öldürüləcəyimi bilsəm də ölüncə bu yoldan dönən deyiləm. Prezident İlham Əliyevi bu mafiozların xəyanətindən qorumağa çalışacam".

**H.Hacıyev yeni bir dövlət qurumunun yaradılması və özünün də ora rəhbər təyin olunmasını təklif etdi:** "Mən təklif edirəm ki, Kənd Təsərrüfatı və Ərzaq Təchizatı Komitəsi yaradılsın. Bu komitənin sədri baş nazirin birinci müavini olsun. Məni də təyin etsinlər həmin komitəyə sədr. Necə ki, mən Azərbaycanda ən çətin dövrdə balıq sənayemizi inkişaf etdirdim, bir ildə 55 ton qara kürünü dünya bazarına çıxardım, ölkəyə böyük vəsait gəldi, indi də o komitəyə həvalə edilən sahələri qısa müddətdə ayağa qaldıraram. Mən bu nazirlər kimi cibimə işləmərəm. Kənd təsərrüfatını 6-7 ayda inkişaf etdirməsəm, qanımı halal edirəm, məni Azadlıq meydanında assınlar. Asmasalar, gedib özümü Azadlıq meydanında yandırıb öldürərəm".

❑ **Etibar SEYİDAĞA**

## Türkiyə iqtidarı Azərbaycan müxalifətinə arxa durur?



**Son zamanlar Azərbaycanın müxalifət fəallarının Türkiyə televiziyasında çıxışlarına tez-tez rast gəlinir. Hesab olunur ki, Türkiyə iqtidarı Amerikanın tələbi ilə Azərbaycan müxalifətinə dəstək olaraq, onların fəallaşması istiqamətində işlərə başlayıb.**

Məsələ ilə bağlı musavat.com-a politoloq Fərhad Mehdiyev danışıb. O bildirib ki, bir kanalın bunu etməsi ilə vəziyyəti qiymətləndirmək olmaz: "Hökumətə birbaşa bağlı olan kanallar və qəzetlər var. Müxalifət liderləri həmin kanallara dəvət olunarlarsa, o zaman nə isə söyləmək olar. Türkiyə hökumətinin belə bir addım atmasını gözləmirəm".

Politoloq bildirib ki, Amerika Türkiyə iqtidarını Azərbaycan müxalifətinə dəstək olmağa təhrik edə bilməz: "Hazırda Türkiyədə vəziyyət belədir ki, hökumət Amerikadan bir o qədər də asılı deyil. İnanmıram ki, Amerikadan belə bir təklif gələrsə, Türkiyə hökuməti bunu dolayı da olsa, reallaşdırmaq istəsin".

❑ **Əli RAİS**

# Müxalifəti hakimiyyətə gətirən "Meymun"...

## 1992-ci ildə baş verənlər 2016-da təkrarlana bilərmi?; Qabil Hüseynli: "İnqilablar siyasi səhnəyə yararlı insanları çıxarmır"

**Qarşıdan 2016-cı il Meymun ili gəlir. 23 il öncənin bu zamanlarında da ölkəmizdə eyni situasiya yetişmişdi. Belə ki, 1991-ci ildə iqtisadi böhran bütün sahələri ağuşuna almışdı. Məhz həmin dövrdə baş verən iqtisadi böhrandan sonra 1992-ci ilin mayında, Meymun ilində o zaman müxalifətdə olan Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmişdi.**

24 il sonra tarix təkrarlana bilərmi? Bu sual 2016-cı il öncəsi əsas aktual mövzulardan biridir. Bir həftədən çoxdur davam edən devalvasiyanın fonunda ölkənin müxalifət düşərgəsinin qarşıdan gələn illə bağlı bəzi proqnozları var. Müxalifət rəhbərləri 2016-cı ildə ölkəmizdə ciddi dəyişikliklərin olacağına ümid edirlər. 1992-ci ildə hakimiyyətdə olan bu şəxslərin əksəriyyəti hazırda müxalifətdədir. Bəlkə də Meymun ilində hakimiyyətə gəldiklərini düşünüb, qarşıdan gələn ilə ümidli baxırlar...

**Politoloq Qabil Hüseynli müxalif düşərgənin gələcəklə bağlı baxışlarının real olmadığı düşüncəsindədir. O hesab edir ki, o zamanlar totalitar bir rejimin dağılması qarşıda duran əsas məqsədlərdən biri idi:** "SSRİ-nin necə dağılmasını yaxşı bilirik. Bunun daxili və xarici amilləri var idi. Böhran elementləri də əsas rol oynadı. Amma daha çox daxili və xarici amillərin birləşməsi nəticəsində baş verdi. Bu gün Azərbaycanın müstəqilliyinin 24-cü ilini yaşayırıq. Bu illər ərzində


Qabil Hüseynli

Azərbaycanın kifayət qədər möhkəm olan iqtisadiyyatı, eyni zamanda oturuşmuş dövlətçilik elementləri qurulmuşdu. Doğrudur, ortada böhran amilləri var. Ölkənin ciddi reformalara ehtiyacı var. Amma ölkənin inqilaba qətiyyən ehtiyacı yoxdur. İnqilablar artıq keçilmiş bir mərhələdir, qan-qadadır. Bir qayda olaraq da inqilablar siyasi səhnəyə yararlı insanları çıxarmır. Cəmiyyətin təkamül yolu ilə inkişafı ən uyğun yoldur. Bu da islahatlar və ciddi dəyişikliklər yolu ilə həyata keçirilir. İslahatlar iqtisadi, mədəni və kadr sahələrini əhatə edir. Beləliklə, cəmiyyət dinc yolla bəlli bir keyfiyyət dəyişikliyinə uğrayır. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, ölkə ciddi bir reformasiyalar qarşısındadır. Bunlar həyata keçiriləcək. Amma köklü dəyişikliklər, inqilablar baş verməyəcək. O zaman baş verən inqilablar müəyyən bir coğrafiyada baş verirdi. Mənə elə gəlir ki, ölkəni idarə edənlər ən xoşagəlməz meyllərdən qaçmaq üçün müəyyən konseptual tədbirlərə əl atacaqlar. İslahatlar lazımdırsa, bunu, kadr dəyişikliyinə ehtiyac varsa, onu həyata keçirəcəklər. Bir növ Azərbaycan cəmiyyətinin xoşagəlməz amillərlə qarşı-qarşıya gəlməsinə izn verməyəcəklər. Bunu cəmiyyətin əksər hissəsi də istəyir. Cəmiyyət dinc dəyişiklikləri, islahatları, maddi rifaha gedən dinc addımları istəyir. Kimsə inqilab abı-havasına qatıla, cəmiyyətdə də bunun yaranmasına səbəb ola bilər. İnqilabın nəticələrini, burnumuzun ucunda ermənilərin və digər xalqların hansı durumla üzləşdiyini düşünərək, belə məsələlərə ehtiyatla yanaşmalıdır. Cəmiyyətimizdə baş verən hər hansı bu kimi hallar, düşmənlərimizin hərəkətə gəlmələrinə səbəb ola bilər. Zənnimcə, biz ümummilli maraqlar ətrafında birləşərək, dövlət qarşısında müəyyən tələblər qoyaraq, bu tələblərin həyata keçirilməsinə nail olmalıyıq. Başqa bir intriqa yaradan, insanları qızışdıran halların baş verməsinə tərəfdar deyiləm".

**Q.Hüseynli o zamankı müxalifətlə indiki müxalifətin gücünü də müqayisə etdi:** "O zaman ümumxalq hərəkatı mövcud idi. Ruh yüksəkliyi var idi. Həmin dövrdə mövcud sistemdən qurtuluş üçün mübarizə aparırdılar. Cəmiyyətin böyük bir hissəsinin baxışlarında oxşarlıq var idi. Hazırda cəmiyyətdə müəyyən narazılıq ola bilər. Amma bu, cəmiyyətin bütün hissələrinə aid deyil. Hər iki dövrü müqayisə etmək qüsurlu olar".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 292 (6320) 30 dekabr 2015

# 2015-də mədəniyyət aləminin itkiləri, uğurları...

## Başa vurduğumuz ildə dünyasını dəyişənlər, işdən qovulanlar, şiddətli töhmət alanlar kimlərdir?













**Artıq 2015-ci ili geridə qoyuruq. Bu il mədəniyyət aləmi üçün ağır itkilərlə yadda qaldı. Azərbaycan musiqisi, mədəniyyəti, ədəbiyyatının inciləri sayılan bir çox görkəmli sənətkarlarımız, şəxsiyyətlərimiz dünyasını dəyişdi. Onlar arasında xalq şairi Vaqif Səmədoğlu, şair Məmməd Aslan, xalq rəssamı Davud Kazımov, xalq artistləri Nuriyyə Əhmədova, İlham Əsgərov, Sofiya Hüseynova, əməkdar artist Ələsgər Məmmədoğlu, aktrisalar Gülnar Salmanova, "Qayınana" filmindəki gəlin -Sevda obrazı ilə yadda qalan Tanilə Əhmərova, bəstəkarlardan Ramiz Mirişli, Nəriman Məmmədov, Azər Rzayev, ustad kamança ifaçısı Habil Əliyev var.**

Bu cür itkilərə baxmayaraq, mədəniyyət, xüsusən də kino sahəsində bir sıra uğurları da oldu. O cümlədən bir neçə bədii film, kinokomediyalar tamaşaçılara təqdim olundu. "Nabat", "Sonuncu", "Çölçü" filmləri bir sıra beynəlxalq festivallarda iştirak edərək yüksək mükafatlar qazandı. Ən sevindirici məqam isə uzun illərdən sonra ilk uşaq filmi "Dərs"in ekranlara çıxması oldu.

Həmçinin ilin əvvəlində Bakıda möhtəşəm "Muğam aləmi" IV Beynəlxalq Muğam Festivalı keçirildi. Festival çərçivəsində bir sıra maraqlı tədbirlər, o cümlədən dünya şöhrətli Vaqif Mustafazadənin 75 illik yubileyi də təşkil edildi. Festivalda Türkiyə, İran, İraq, Özbəkistan, Tacikistan, ABŞ, Fransa, İngiltərə, Livan, İspaniya, Almaniya, İordaniya, Rusiya, Çin, Hindistan, Tunis, Belçika, Sloveniya və Niderlanddan gəlmiş dünya şöhrətli musiqiçilər və musiqi qrupları maraqlı çıxışlar etdi.

Lakin ilin sonuna yaxın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev kollegiya iclası keçirərək Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadəyə mədəniyyət müəssisəsinin fəaliyyətini lazımi səviyyədə qura bilmədiyinə, vəzifəsinə məsuliyyətsiz yanaşdığına və nazirliyin qərarlarının icrasını təmin etmədiyinə görə, yol verdiyi bu və ya digər ciddi nöqsanlar üçün şiddətli töhmət verdi. Nazir bildirib ki, müəssisədə bədii şuraların iclasları keçirilmir, kollektivlərin repertuarının yenilənməsi, bilet satışı lazımi səviyyədə deyil, ölkənin regionlarında konsertlər təşkil olunmur, beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün müvafiq işlər görülmür, tədbirlər haqqında ictimaiyyət əvvəlcədən lazımi səviyyədə məlumatlandırılmır.

Bütün bu səbəblərə görə Əbülfəs Qarayev M.Adıgözəlzadənin müavini Afət Məlikova da fəaliyyətsizliyə və vəzifə səlahiyyətlərinin öhdəsindən gəlmədiyinə görə ciddi xəbərdarlıq edib. Həmçinin Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin direktoru Şükür Səmədova, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin direktoru Nazilə Yaqubovaya, Dövlət Xor Kapellasının direktoru Xurşid Abdullayevaya, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının direktoru Elçin Abbasova, Azərbaycan Dövlət Rəqs Ansamblının direktoru Zahir Qasımova da ciddi xəbərdarlıq edilib.

Bunun ardınca isə nazir bugünlərdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyevi vəzifəsindən azad etdi. Onun yerinə Nizami Kino Mərkəzinin direktoru Vüqar Zeynalov təyin olundu.

Bir neçə gün bundan əvvəl isə Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktoru Röya Tağıyeva təqaüdə göndərildi. 71 yaşlı R.Tağıyevanın işinə 1 yanvar 2016-cı il tarixində son veriləcək. Mətbuatda yayılan məlumatlara görə, R.Tağıyeva ilə bağlanan əmək müqaviləsinin müddəti dekabrın 1-dən bitib və nazir onun əmək müqaviləsinin müddətini uzatmaq istəməyib. Bunun isə ciddi səbəbləri var. Xatırladaq ki, bir müddət bundan əvvəl Əbülfəs Qarayevin əmri ilə muzeyin fəaliyyətində yol verdiyi nöqsanlara, kollektivdə normal iş ahənginin pozulmasına şərait yaratdığına, rəhbərlik etdiyi muzeydə əmək və icra intizamına ciddi əməl olunmasını təmin etmədiyinə görə Röya Tağıyeva sonuncu xəbərdarlıqla şiddətli töhmət almışdı. Öz vəzifəsinə məsuliyyətsiz münasibət göstərdiyinə, maliyyə vəsaitlərinin xərclənməsində sənədləşməni qanunvericiliyə uyğun aparmadığına görə Azərbaycan Xalça Muzeyinin baş mühasibi Gülnaz Rüstəmova isə tutduğu vəzifədən azad edilmişdi.

Qeyd edək ki, Röya Tağıyevanın vəzifəsi müvəqqəti olaraq muzeyin baş mühasibi Mira Məmmədxanovaya tapşırılıb.

İlin yaddaqalan hadisələrindən biri də Əbülfəs Qarayevin şair Vaqif Bəhmənlini ona mədhiyyə xarakterli şeir yazdığına görə nazirlikdə tutduğu şöbə müdiri vəzifəsindən azad etməsi oldu...

❑ **Xalidə GƏRAY**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34





# FHN dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət etdi

**Fövqəladə Hallar Nazirliyi dəm qazı ilə əlaqədar əhaliyə müraciət edib. Nazirlikdən lent.az-a verilən məlumata görə, müraciətdə qeyd olunur ki, qış mövsümü ilə əlaqədar əhalinin təbii qaza olan tələbatının artması fonunda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması dəm qazı təhlükəsi yaradır.**

Ölümlə nəticələnə bilən bu təhlükə ilə üzləşməmək üçün aşağıda göstərilən qaydalara əməl edilməlidir:

- qaz cihazı saz və standartlara uyğun olmalı;
- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
- hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;
- tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Müraciətdə qeyd edilir ki, dəm qazı iysizdir, hiss edilmir. Ondan zəhərlənmənin əlamətləri baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıqdır.

Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəs almasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır.

Təhlükə zamanı 112-yə zəng etmək tövsiyə olunur.

# "Onların təşəbbüsləri ilə addımlar atılsaydı, iqtisadiyyat çoxdan çökərdi"

## Hakimiyyətyönlü deputat müxalifətin verdiyi təklifləri niyə yararsız hesab edir?

**Ölkə müxalifəti uzun zamandır ki, hökumətə qarşı öz tələb və təklifini meydanlardan deyil, sosial şəbəkə və mətbuat üzərindən irəli sürür.**

Bəs müxalifət tərəfindən irəli sürülən təkliflərə iqtidarın münasibət necədir?

**Məsələ ilə bağlı musavat.com-a Zahid Oruc danışıb. O bildirib ki, Azərbaycanda hər hansı bir iqtisadi tədbirdən narazı qalan ən ucqarda yaşayan insan belə öz taleyini müxalifətə bağlamır:** "Çünki onların virtual şəkildə irəli sürdükləri müxtəlif nəzəri mülahizələrə vətəndaş inanmır. Ötən dövr ərzində də bunu dəfələrlə görmüşük. Hansısa beynəlxalq təcrübənin, yaxud da bir təşkilatın modelini götürüb Azərbaycana daşımaq məsələnin kiçik bir hissəsidir. Dünyada devalvasiya müxtəlif ölkələrdə həyata keçirilib. Hər birində isə fərqli nəticələr ortaya çıxıb. Bu, təkcə xalqların mental dəyərlərindən asılı deyil. Oradakı iqtidar və müxalifətin hansı vəziyyətdə olması da önəmli olan faktordur. Əgər hökumətlər real fəaliyyət aparırsa, digər əks qüvvələrin də borcudursa ki, ona alternativ fikir ortaya qoysunlar, bu məqbul sayılır. Ancaq mən indiyə qədər ölkə müxalifətinin böyük əksəriyyətinin iqtisadi təhlillərinin xeyli yararsız, səthi olduğunu görmüşəm. Baxmayaraq ki, virtual aləmdə müxalifət çox fərqli mənzərə yaradıb. Ölkədə baş verən birinci devalvasiyadan sonra bu hadisəni müdafiə edib və paralel şəkildə hökumətin hansı iqtisadi tədbirləri görməli olduğunu bildirdim. O dövrdə belə adi mexaniki məsələlərdə çox kobud səhv edən müxalifyönlü iqtisadçıların baxışlarının gerçəkdən də uyarsız olduğunun şahidiyik. Misal üçün, bildirilirdi ki, birinci devalvasiyadan sonra 100 manatı olan vətəndaş, bunun 34.5 faizini itirmiş hesab olunur. Bu adamlar manatın dollara nisbətdə devalvasiyası ilə manatın real dəyəri anlayışını bir-birinə qatırlar".

**Z.Oruc bildirib ki, hakim kursu müdafiə edən insanlar yaranmış yeni ideyalara diqqət göstərməyə meyllidir:** "Ancaq onların bir çoxlarının təşəbbüsləri ilə addımlar atılsaydı, iqtisadiyyat çoxdan çökərdi. Özünü sadə vətəndaşla eyni qida rejimində göstərmək xal qazanmağa imkan verir. Lakin bütövlükdə götürəndə hesab edirəm ki, bu gün Azərbaycan müxalif qüvvələrinin meydana çıxardıqları şəxslər, sadəcə olaraq, popurizimlə məşğuldurlar. Yalnız bir-ikisini çıxmaq olar ki, onlar normal təhlillər edib, təkliflərini səsləndirir. Müxalifət liderlərinə gəlincə isə onlardan belə bir şey görməmişəm. Onların böyük əksəriyyəti küfrlə-ölkədə durum nə qədər pis olarsa, onlar üçün bir o qədər yaxşıdır- ideologiyası ilə yaşayan adamlardır. Sizi əmin edirəm ki, həmin liderlərin gündəlik qida rasionu sadə xalqdan çox-çox fərqlidir. Onlar, sadəcə olaraq, müxalif elitanı təşkil edirlər və özləri üçün də tamamilə aristokratik həyat tərzinə, yaşayışa malikdirlər. Həmin şəxslərin sadə xalq adından çıxış etmələri mənə çox qəribə gəlir".


Zahid Oruc

**Müxalifətin son zamanlar hakimiyyəti qeyri-neft sektorunun inkişafına diqqət etməməsi ilə bağlı qınamasına isə Zahid Orucun münasibəti bu cür oldu:** "Ölkəyə daxil olan 150 milyard dollardan artıq vəsaitin iqtisadiyyata neçə hopması üzərində dayanıb danışırıq. 30 iyun 1993-cü ildə neftlə bağlı müqavilə bağlayacağıq deyən adamlar beynəlxalq siyasi sunamilərin, hərbi təhdidlərin qabağında həmin addımları ata bilməyəcəkdilər. Ona görə də fərqi qoy Azərbaycan insanları görsünlər. Neft amilindən kənarda durmalıyıq deyənlər, özləri həmin dövrdə bu amilə istinad etməyi istəyirdilər. Halbuki ötən dövr ərzində neft, sovetlər dönəmindən sonra yeni infrastrukturun formalaşmasına, dövlət orqanlarına bina tikməyə, köçkünlərə qəsəbələr salınmasına səbəb oldu. Əlbəttə, hər kəs razıdır ki, bahalı neft erası bitdi. Bundan sonrakı dövrlərdə menecmentin və digər bu kimi qüvvələrin mövqeyi öndə olacaqdır. SOCAR brendi bundan sonrakı dövrlərdə böyük layihələri həyata keçirə bilməyəcək. Bu, hakimiyyətə bəllidir. Ancaq qeyd etdiyiniz ittiham janrından başqa, müxalifətin fikirlərindən nəyi görmək olur? Zənn edirəm iqtidar-müxalifət münasibətləri baxımından bizim dialoqlar da normaldır. Ancaq onlar bolşevizmə dayanmamalıdır. Devalvasiyanın yaratdığı fəsadları aradan qaldırmaq üçün müxalifətə istinad etmək mənəvi-siyasi devalvasiyanı qat-qat artırardı".

❑ Əli RAİS

# Daha bir sahibkarlıq subyekti çökür

## "İlham" MMC rəhbəri prezidentdən kömək istəyir

**Ölkədə sosial-iqtisadi durumun yaxşılaşması daxili bazarın, sahibkarlığın inkişafından asılı olduğu bir vaxtda sahibkarlıq subyektləri bir-birinin ardınca fəaliyyətini dayandırmaqdadır. Belə subyektlərdən biri də "İlham" MMC kəndli fermer təsərrüfatıdır.**



**MMC rəhbəri, sahibkar İqbal Mikayılov** deyir ki, ağır imtahan qarşısında prezidentə müraciət edib iflas həddinə çatdırılmasını səbəblərini çatdırmaq istəyir.

**Sahibkarın prezidentə müraciətini təqdim edirik:**

"Möhtərəm cənab prezident!

Bu gün ölkəmizdə sahibkarlığın inkişafına bilavasitə cavabdeh olan nazir Şahin Mustafayev və Sahibkarlığa Kömək Milli Fondunun sədri Şirzad Abdullayev cidd-cəhdlə mənim kimi əli qabarlı, zəhmətkeş sahibkarların fəaliyyətinə böyük əngəllər yaradırlar. Şirzad Abdullayev dövlətin sahibkarlığın inkişafı üçün ayırdığı pulu öz şəxsi vəsaiti kimi ürəyi istədiyi şəxslərə verdirir. O, banklara göstəriş verməklə güzəştli kreditlər ayıraraq Sizi və ölkə ictimaiyyətini aldadır. Məcburiyyət qarşısında qalıb güc sturukturlarımızın rəhbərlərinə müraciət etdim. Amma Şahin Mustafayev qəti narahat olmadı. Heç düşünmədi ki, niyə görə sahibkar aidiyyəti üzrə mənə deyil, güc nazirlərinə müraciət edir? Bir sahibkar kimi Şahin Mustafayevə müraciət etmişəm - arxasında iri ranqlı məmur olmayan hansı sadə, öz zəhməti ilə təsərrüfat yaradan sahibkarlara 100 min, 200 min, 300, 400 min, 500 min və sair güzəştli kredit vermisiniz? Sualıma Şahin Mustafayev cavab verə bilmədi. Çünki sadə sahibkarlara maksimum 15 min manat güzəştli kredit verilir. Amma mən araşdırma aparmışam, Şirzad Abdullayev 1 milyon, 2 milyon güzəştli kredit verdiyi şəxslər yüksək vəzifə sahibləridirlər. Amma mən dövlətimdən 75 min manat kredit götürüb təsərrüfatımı genişləndirə bilmirəm.

**Cənab Prezident!**

2014-cü ilin aprelində Şirvan şəhərinin səhralığında, yolu, işığı, suyu olmayan ərazidə böyük təsərrüfat yaratdım. Şahin Mustafayev, Şirzad Abdullayev üçün ölkəmizdə mənim kimi sahibkarların fəaliyyət göstərməsi, dövlətimizə, xalqımıza fayda verməsi qəti önəmli deyil. Onlar elə hesab edirlər ki, sahibkarlığın inkişafına Sizin bilavasitə ayırdığınız vəsait şəxsi pullarıdır. Şirzad Abdullayev banklarla əlbir olub oyun oynayır, sahibkarlara zülm edir. Bu gün ölkəmizdə aqrar sahənin inkişafına əngəl olan bilavasitə Şirzad Abdullayevdir. Mən bunu öz timsalımda görmüşəm. Mənim "Yeni Müsavat" qəzeti vasitəsi ilə Sizə müraciət etməyimi Şirzad Abdullayev dövlətə xəyanət kimi qəbul edir. Halbuki qəzet sırf Şirzad Abdullayev kimi məmurlar tərəfindən haqqı tapdananların güvəndiyi bir mətbu orqandır. Ən böyük xəyanət dövlət başçısının siyasətinə zidd hərəkət edib ölkənin iqtisadi, aqrar sahəsinin inkişafını iflic edərək xalqı ölkə rəhbərliyindən narazı salmaqdır.

**Cənab Prezident!**

Hesablama Palatasının SKMF-də aşkar etdiyi ciddi qanun pozuntuları barədə yaydığı məlumat mənim qeyd etdiklərimi bir daha təsdiq etdi. İnanıram ki, müraciətim Siz tərəfdən nəzarətə götürüləcək və zamanında zəruri tədbirlər görüləcəkdir".

❑ E.HÜSEYNOV




# Ölkədən qaçan daha bir iş adamı axtarışa verildi

**Azərbaycan hüquq-mühafizə orqanları vergidən yayınan iş adamını axtarışa verib. Bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 37 yaşlı Rüfət Vəliyev külli miqdarda vergidən yayınmaqda təqsirləndirilir.**

O, Azərbaycanı tərk etdiyi üçün barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib.

APA-nın əldə etdiyi məlumata görə, R.Vəliyev sahibkarlıq fəaliyyəti ilə məşğul olurmuş.

Qeyd edək ki, son vaxtlar Azərbaycanda vergidən yayınan xeyli sayda iş adamı İnterpol xətti ilə axtarışa verilib.

YENİ MÜSAVAT

Son səhifə

N 292 (6320) 30 dekabr 2015




## Polis maşınına siqnal verdi, türməyə düşdü

İngiltərənin Blekpul şəhərində polis onlara siqnal verən bir sürücünü həbs edib. Bu barədə “The Daily Mail” qəzeti xəbər verib. 34 yaşlı Pol Samara işdən sonra evə gedərkən qarşısında hərəkət edən polis maşını onu əsəbləşdirib. Belə ki, polis maşını tez-tez, qəfil əyləci basaraq dayandığı üçün sürücü də sonunda buna dözməyib və siqnal verib. Bundan sonra polis maşınından bir polis əməkdaşı düşüb və Samaraya hərəkətinin çox yanlış olduğunu deyib. O, eyni zamanda sürücüyə bildirib ki, onlar itmiş bir uşağı axtardıqları üçün tez-tez maşını saxlayırlar. Polis işçisi sürücüyə sonda bunları deyib: “Əgər sizin gələcəkdə hər hansı probleminiz olsa, bizə müraciət etməyin, çünki bizə maraqlı olmayacaq”.

Bu sözə görə tərəflər arasında mübahisə düşüb və Pol Samara da polisə cavab qaytardığı üçün onlar sürücünün qollarını qandallayıb, həbs ediblər. Polis bölməsində onun barmaq izlərini götürüblər, ictimai asayişi pozduğu üçün cəzalandırıblar. Polislər bəyan edib ki, sürücü onları aşağılayıb və təhdid edib. Bu məsələnin araşdırılması yarım il davam edib. Amma Samaranın özünü qanundankənar aparması ilə bağlı hər hansı fakt tapılmadığı üçün onu cəzalandırmayıblar. İstintaq yekunlaşandan sonra isə Samara bildirib ki, polislərə qarşı hər hansı şikayət verməyi düşünmür. Çünki adi həyatına geri qayıtmaq istəyir.

## Qanında qlükoza azdırsa, ərinlə dalaşacaqsan

Ailələrdə ər-arvad qalmaqalının “biokimyəvi” səbəbi aşkarlanıb. Məlum olub ki, qanında qlükozanın miqdarı aşağı olan qadınlar ərləri ilə daha aqressiv davranırlar. ABŞ-ın Ohayo Universitetinin psixoloqu Bred Buşman bu qənaətə gəlib. “Science” jurnalının yazdığına görə, Buşman və onun Kentukki, eləcə də Şimali Karolina universitetlərindən olan məsləkdaşları 107 evli cütlük seçərək onlara qlukometrlər, gəlinciklər və sancaqlar veriblər. Sınaqdan keçirilənlərin qanlarında şəkərin miqdarı gündə iki dəfə ölçülüb. Nəticədə qanında qlükozanın miqdarı aşağı olan qadınların həyat yoldaşlarını simvolizə edən gəlinciklərə sancaq batırdığı müşahidə olunub. Bu və ya digər təcrübələr göstərir ki,



qlükozanın qanda miqdarı 25 faizdən aşağı olduqda qadın daha çox aqressiya göstərib. Buşman qeyd edib ki, qlükoza soyuqqanlılığı qoruyur və emosiyaları nəzarətdə saxlayır. Digər alim Devid Benton da hesab edir ki, qlükozanın aşağı olması aqressiyanın səbəblərindən biridir.

## Siçan təyyarəni 6 saat gecikdirdi

“Qatar Airways” kampaniyasına məxsus təyyarələrdən birində maraqlı hadisə baş verib. Madriddən Qətərə uçmalı olan qatar salondakı siçan ucbatından 6 saat boyunca hərəkət etməyib. Bu barədə “The Daily Mail” xəbər verir. Sərnişinlər siçanı görən kimi qorxuya düşüb və ekipaja bununla bağlı məlumat veriblər. Sərnişinlər salonu tərk edəndən sonra içəridə ciddi axtarış və təmizləmə əməliyyatı aparılıb. Bu isə son nəticədə Qətərə uçan təyyarənin 6 saat gecikməsinə səbəb olub. Amma sərnişinlər buna görə şikayət edib, çünki bu, onların iş və həyat qrafiklərində ciddi problemlər yaradıb. Aviakompaniyanın nümayəndələri bunu kompensasiya edəcəklərini bildiriblər. Bundan öncə “Norwegian Air Shuttle” və “Swiss” hava yollarında da analoji hal baş vermişdi. Hər iki halda salonda siçanın peyda olması ekstremal yoxlama ilə müşayiət olunmuşdu. 2014-cü ilin avqustunda isə “Air India” nümayəndəliyindən bildirmişdilər ki, ümumiyyətlə, təyyarədə hər hansı gəmiricinin olması olduqca adi hal sayılır.






## Duzlu yemək mədə xərçənginə səbəb olur

Çox şokolad yemək mədə xərçəngi riskini artırır. Türkiyə mətbuatının yazdığına görə, həzm sistemi xəstəliklərini araşdıran mütəxəssislər çox şokolad və duzun mədə xərçəng riskini artırdığını ortaya çıxarıb.

Mütəxəssislər dünyada mədə xərçənginin ağciyər xərçəngindən sonra ikinci yerdə olduğunu bildirib. Xərçəng xəstəliyindən əziyyət çəkən hər 10 nəfərdən biri mədə xərçəngi xəstəsidir. Ancaq bu rəqəm ayrı - ayrı ölkələrə görə dəyişir. Məsələn, Yaponiya və Latın Amerikasında sözügedən xəstəliyə daha çox rast gəlinir.

Həkimlər bu xəstəliyin yaranmasında qidalanmanın və həyat tərzinin önəmli rol oynadığını bildirir. Şokolad və duz da bu qidalar sırasındadır.




**QOÇ** - İşlərinizə mane olan bədxahlara qarşı tədbirli olun. Bu təqvimdə həmkarlarınıza da çox bel bağlamayın. Əgər bu gün işləməsəniz, mənfi çalarlı heç bir hadisə baş verməyəcək.

**BUĞA** - Yeni il yaxınlaşdıqca öhdəlikləriniz də artmaqdadır. Ətrafınızda olanlara biganə yanaşmayın. Sizə ehtiyac duyanlara mərhəmət göstərin. Şəxsi işlərinizdə dönüş gözlənilir.

**ƏKİZLƏR** - Ailədaxili məsələlərə təmkinlə yanaşsanız, mənfi enerjili qüvvələr sizi yoldan döndərə bilməyəcək. Bugünkü təqvimdə maddi rifah halınızın yüksələcəyinə də inam bəsləyin.

**XƏRÇƏNG** - Ən düşərli zaman kəsiyindən məhz siz keçəcəksiniz. Sevindirici xəbərlər, perspektivli təkliflər ovqatınıza müsbət təsir göstərəcək. Sevgi amili isə daha ön plana çəkiləcək.

**ŞİR** - Özünüz şərait yaratmasanız, kimsə işlərinizə müdaxilə etməyəcək. Pulla bağlı sövdələşmə və planların heç birini təxirə salmayın. Axşama doğru maraqlı insanlarla görüşəcəyiniz də mümkündür.

**QIZ** - Gərgin bir gün yaşaya bilərsiniz. Orqanizminizdə baş qaldıran nasazlıq və qarşılıqlı münasibətlərdə gərginlik sizi yora bilər. Nəzərə alın ki, saat 00:57-dən mənfi enerjili Ay bürcünüzdədir.

**TƏRƏZİ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimi neytral şəkildə ötürəsiniz. Hansısa qeyri-adiliklərə, risklərə getməyin. Sağlamlığınıza isə xüsusi diqqət yetirin. Sövdələşmələrdən yayının.

**ƏQRƏB** - Ümumi ovqatınızda müəyyən natarazlıq olsa da, bunun səbəbi insanlardan yox, təbiətin pozulmuş ahəngindən irəli gəlir. Buna baxmayaraq, ulduzlar perspektivli təkliflər alacağınızı göstərir.

**OXATAN** - Ailə-sevgi münasibətlərinə həssas yanaşsanız, qarşınızı kəsən digər maneələri asanlıqla dəf etmək imkanı qazanacaqsınız. Şəxsi büdcənizi mənasız məsrəflərə xərcləməyin.

**OĞLAQ** - Astroloji göstəricilər soyuqdəymə halları ilə rastlaşacağınıza işarə edir. Qalın geyinməklə bahəm, qida və yuxu rejiminə də fikir verməlisiniz. İndi “hakim” bürc olduğunuzu unutmayın.

**SUTÖKƏN** - Bayram ovqatlı bu gözəl təqvim sizin üçün ən düşərli ərəfə olacaq. Narahat olmağa heç bir səbəb yoxdur. İstənilən sövdələşmədə iştirakınız uğurlu olacaq. Uzaq səfərə çıxmağa dəyər.

**BALIQLAR** - Daxili sıxıntılarınıza biganə yanaşmayan Göy qübbəsi bu təqvimdə qayğınıza qalacaq. Sizsə öz növbənizdə başqalarının işinə qarışmamalı, yalnız öz problemlərinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yeni il bayramını qeyd edənlər 15 min dollar cərimələnəcək



Bruney sultanlığında xristianların Milad bayramı rəsmi formada qadağan edilib. Ölkədə bu bayramın keçirilməsi və bu bayramla əlaqəli simvolların ictimai yerlərdə nümayiş etdirilməsi rəsmən qadağan olunub. Bruneyin şəriət polisi qadağanın tətbiqinə ciddi nəzarət edir. Qadağaya əməl etməyənləri isə 15 min dollarlıq cərimə və 5 ilədək həbs cəzası gözləyir. Qeyd edək ki, bundan əvvəl Çin dövləti də Miladın keçirilməsini qadağan etmişdi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300